

# Parlament deputatları üçün 6-cı Maddə və Karbon Bazarlarına dair Bələdçi

GLOBE
The Global Legislators Organisation
Est. 1991

avqust 2025-ci il

Hesabat müəllifi - Kalyani Inampudi

Redaktor - Malini Mehra

Tərtib etdi - Freedom Designs

Dərc etdi: GLOBE Legislators. Avqust 2025-ci il. Bütün hüquqlar qorunur.

Bu hesabatın dərc edilməsi onun məzmununun “GLOBE Legislators” tərəfindən təsdiqlənməsi anlamına gəlmir. Hesabatda ifadə olunan fikirlər müəllifə məxsusdur və buraxıla biləcək hər hansı səhvə görə yalnız müəllif məsuliyyət daşıyır.

© GLOBE Legislators 2025

# Mündəricat


**Ön söz** ... 3

**Təşəkkürlər** ... 5

**Bələdçi sənədinə giriş** ... 6

**Fəsil 1: 6-cı Maddə nə üçün milli siyasət prizmasından əhəmiyyət kəsb edir ?** ... 7

**Fəsil 2: 6-cı Maddə haqqında anlayışların artırılması – üç mexanizm və yanaşma** ... 12

**Fəsil 3: 6-cı Maddə üzrə mexanizmlərdə iştirakın ölkə üçün nəticələri** ... 16

**Fəsil 4: Hüquqi, institusional və texniki hazırlıq – tələb olunan əsas şərtlər** ... 20

**Fəsil 5: Hökumətlər və parlament deputatları üçün praktiki addımlar** ... 25

**Fəsil 6: Təhlükəsizlik tədbirləri, bütövlük və inklüzivlik** ... 28

**Fəsil 7: 6-cı Maddənin ilk icraçılarının təcrübələri və əldə olunmuş dərslər** ... 32

**Fəsil 8: 6-cı Maddə üzrə tez-tez verilən suallar** ... 35

**Fəsil 9: Qarşıdakı yol – 2025–2030-cu illər üçün əsas fəaliyyətlər** ... 41

**Fəsil 10: 6-cı Maddənin daha geniş siyasət gündəliyi ilə uzlaşdırılması** ... 46

**Fəsil 11: Əsas nəticələr və hökumət strukturları üçün yoxlama siyahısı** ... 49

**Fəsil 12. Əlavə resurslar və alətlər** ... 52

**Fəsil 13: Risklər, yumşaldıcı strategiyalar və 6-cı maddə üzrə fəaliyyətlərdə etik prinsiplər** ... 55

# Ön söz

“GLOBE Legislators”un yaradılma tarixi 1992-ci ildə Braziliyanın Rio de Janeyro şəhərində təşkil olunan və daha çox Rio Yer Zirvəsi kimi tanınan Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit və İnkişaf Konfransına (UNCED) gedib çıxır. Rio Yer Zirvəsi ərəfəsində təsis olunmuş “GLOBE” təşkilatının əsas məqsədi parlament deputatları üçün hökumətlərarası danışıqlarda iştirak üçün platforma yaratmaq idi ki, bu da bildiyimiz kimi beynəlxalq ətraf mühit rejiminin yaradılmasına gətirib çıxarmışdır. UNCED əhəmiyyətli razılaşmaların, o cümlədən Gündəlik 21, Rio Bəyannaməsi və İqlim Dəyişikliyi və Bioloji Müxtəliflik üzrə iki Konvensiyanın qəbulunu təmin etmişdir.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) ən erkən Tərəflər Konfransından (COP) başlayaraq, “GLOBE” dünyanın müxtəlif hissələrindən olan qanunverici orqanlarının üzvlərini təmsil etdikləri partiyalardan asılı olmayaraq bir araya gətirir və iqlim dəyişikliyi mövzusunda dialoqun və fəaliyyətlərin formalaşdırılmasına kömək edir. Ən əhəmiyyətlisi, “GLOBE”un üzvü olan deputatlar beynəlxalq səviyyədə əldə olunan razılaşmaların milli qanunlara çevrilməsi, müvafiq büdcələrin qəbul edilməsi və icrasına nəzarət məqsədilə öz parlamentlərində həvəslə çalışırlar.

2021-ci ildə COP26 zamanı GLOBE, UNFCCC Qeyri-formal Parlament Qrupu üçün əlaqələndirici nöqtə kimi fəaliyyət göstərmişdir və beləliklə, parlament üzvləri, parlament təşkilatları və şəbəkələrinin bütün dünyada UNFCCC prosesi və illik COP-lara müstəqil, təmsil etdikləri partiyalardan asılı olmayaraq töhfə vermək məqsədilə sistemli platforma yaratmışdır.

Braziliyanın ilk dəfə ev sahibliyi etdiyi COP30 – Birləşmiş Millətlər Təşkilatının iqlim dəyişikliyi üzrə çərçivə konvensiyasının (UNFCCC) ilk Tərəflər Konfransı 2025-ci ilin noyabr ayında Belém şəhərində keçiriləcək və bu, GLOBE üçün xüsusi əhəmiyyət kəsb edir, çünki təşkilatımız Rioda Yer Zirvəsi zamanı təsis olunmuşdur. Bu baxımdan, “GLOBE” un, Rio de Janeiro şəhərinin qanunverici orqanı olan Camara Rio və Braziliya parlament təşkilatları - Plataforma CIPO, Clima de Politica və OPCC ilə əməkdaşlıq şəraitində ilk dəfə olaraq 2025-ci ilin avqust ayında keçiriləcək Rio İqlim Həftəsi (Climate Action Week) çərçivəsində Pre-COP30 Parlament Forumuna ev sahibliyi etməsi məqsədəuyğun hesab edilir.

27 avqust 2025-ci il tarixində Pre-COP30 Parlament Forumunda, COP30 prosesində qanunverici orqanın məlumatlılığının artırılmasını və ölkədaxili tədbirlərin sürətləndirilməsini hədəfləyən üç hesabatdan biri olaraq “Maddə 6 və Karbon Bazarları üzrə Parlament Bələdçisi”ni təqdim etməklə bu fürsəti qeyd etməkdən çox məmnunuq.

İqlim dəyişmələri sahəsində beynəlxalq əməkdaşlığın təşviqinə dair bazar mexanizmlərinin rolu 1997-ci ildə COP3 zamanı Kioto Protokolu və Təmiz İnkişaf Mexanizminin qəbul edildiyi UNFCCC COP prosesinin başlanğıcından bəri mübahisəli olub. Daha yaxın vaxtlarda isə Paris Sazişinin 6-cı maddəsi iqlim dəyişikliyi sahəsində beynəlxalq əməkdaşlığa imkan yaratmaq və inkişaf etməkdə olan ölkələr üçün maliyyə dəstəyini təmin etmək məqsədilə hazırlanmışdır. Lakin bu maddə uzun müddət mübahisələrə səbəb olmuş və 2015-ci ildə COP21-də Paris Sazişi qəbul edildikdən sonra tam razılıq əldə olunana – 2024-cü ilin noyabrına qədər bir çox problemlərlə üzləşmişdir. Ötən il Bakıda, Azərbaycanda keçirilən

COP29 zamanı 6-cı maddə ətrafında aparılmış uzun danışıqlarında mühüm nəticə əldə edilmişdir, çünki Tərəflər nəhayət üç əsas komponent üzrə razılığa gəlmişdir: Maddə 6.2 (əməkdaşlıq yanaşmaları), Maddə 6.4 (BMT -nin nəzarəti altında kredit mexanizmi) və Maddə 6.8 (qeyri- bazar yanaşmaları).

Bəs 6-cı Maddədə nədən bəhs olunur, karbon bazarları ilə necə əlaqəlidir və bu niyə əhəmiyyətlidir? Çox az mütəxəssis və işgüzar dairə xaricində çox az adam bu suallara cavab verə bilir və ya onun milli iqtisadi, sənaye və iqlim siyasətinin məqsədləri ilə uzlaşdırılması baxımından xüsusi əhəmiyyətini başa düşür. Parlament üzvləri ilə apardığımız işdən bilirik ki, karbon bazarları və son proseslərin anlaşılmasına böyük maraq var. Bu səbəbdən "GLOBE" tanınmış mütəxəssisə bu mövzu barədə hesabatın hazırlanmasını sifariş edərək, 6-cı Maddənin nə demək olduğunu və onun müddəaları barədə anlayışların parlament üzvlərinin işində nə üçün vacib olduğunu izah edir.

COP28 zamanı, GLOBE "Parlamentlər COP-ların əhəmiyyətini artırır" ifadəsini irəli sürmüşdür, çünki parlamentlərin vəzifəsi beynəlxalq razılaşmaları ölkəyə gətirmək, onları milli qanunvericilikdə möhkəmləndirmək, büdcələri qəbul etmək, nəzarət etmək və icrasını yoxlamaqdır. Hesabatın müəllifinin qeyd etdiyi kimi, 6-cı Maddə yalnız texniki bir müddəa deyil, beynəlxalq iqlim əməkdaşlığının əsas mühərrikidir. Bu Bələdçi parlament üzvlərinə milli institut çərçivələrinin qurulmasının mürəkkəbliyini addım-addım izah etməyə, əsas anlayışları təqdim etməyə, nümunələr göstərməyə və tədbirlər üçün vaxt qrafikini təklif etməyə kömək edir.

Paris Sazişinin bu vacib müddəasının ölkə daxilində iqlimlə əlaqədar həyata keçirilən tədbirlərə və beynəlxalq əməkdaşlığa daxil edilməsində dəstək məqsədilə biz bu nəşri parlament üzvlərinə və onlarla əməkdaşlıq edən hər kəsə tövsiyə edirik.

**Malini Mehra**
Baş icraçı direktor, GLOBE Legislators
Rio İqlim Həftəsinin Həftəsinin Həm-konveneri

# Təşəkkürlər

Bu Bələdçi ilkin olaraq "GLOBE Legislators" un Baş İcraçı Direktoru Malini Mehra tərəfindən konseptləşdirilmiş və may–avqust 2025-ci il tarixlərində Kalyani Inampudi tərəfindən tədqiq edilmiş, yazılmış və hazırlanmışdır. Sənəddə Kalyani, həm inkişaf etməkdə olan, həm də inkişaf etmiş ölkələrin 6-cı Maddə üzrə məsul iştirakçılarına dəstək məqsədilə tənzimləyici məlumatları, ölkə təcrübələrini və tətbiq çərçivələrini bir araya gətirməyə çalışmışdır.

Bu proses ərzində baxışı, liderliyi və dönməz dəstəyinə görə Maliniyə dərin təşəkkürümü bildirirəm.

Eyni zamanda, proses zamanı fikir və düşüncəli tənqidləri ilə işə töhfə vermiş bir çox şəxslərə də minnətdaram. Xüsusilə, aşağıdakı mentor və məsləhətçilərə verdiyi motivasiya və hərtərəfli təlimatlara görə təşəkkürümü bildirirəm:

- Cənab Satyanarayana Masabathula, Hind Meşə Xidməti (keçmiş), hazırda VEDA Climate Change Solutions MMC-nin (Hindistan) prezidenti
- Cənab Perumal Armugam, Bazarlar üzrə Menecer, İqlim Dəyişikliyi, UNFCCC, Bonn, Almaniya
- Cənab El Hadji Mbaye Diagne, Maddə 6.4 üzrə Nəzarət Orqanının Üzvü
- Cənab Yuvaraj Dinesh Babu, Baş Direktor, "Global Carbon Market Utility", Sinqapur

İqlim siyasəti, karbon bazarları və davamlı inkişaf sahələrindən olan bütün həmkarlarıma dəyərli vaxtlarını ayırdıqları və öz rəyləri ilə bu işin formalaşmasına verdikləri töhfəyə görə təşəkkür edirəm. Nəhayət, başlanğıc səviyyəsində olanlar üçün bu Bələdçi 6-cı Maddəni sadə və strukturlaşdırılmış formada izah edir. Təcrübəli siyasətçilər və qanunverici orqan üzvlərinə gəldikdə isə, sənəd onlar üçün icra mərhələsində strateji çərçivə və praktik alətləri ortaya qoyur və gələcək karbon iqtisadiyyatını formalaşdırmağa imkan verir.

**Kalyani Inampudi**

# Bələdçi sənədinə giriş

Baxmayaraq ki, Paris Sazişinin 6-cı Maddəsi ilə bağlı çoxlu sayda veb-səhifələr, ağ sənədlər və texniki qeydlər mövcuddur, bu Bələdçinin əsas məqsədi əsas məqamları bir yerdə toplamaqla qısa və praktiki təşəbbüs ortaya qoymaqdır. Bələdçi beynəlxalq karbon bazarları ilə bağlı vəziyyəti öyrənən parlament üzvləri və siyasətçilər üçün praktik rəhbər kimi hazırlanmışdır. Sənəd 6-cı Maddə ilə təzə tanış olan şəxslərdən tutmuş artıq bu sahədə təşəbbüsləri icra etmiş ölkələrə (məsələn, Qana, İndoneziya və İsveçrə) kimi  çox geniş spektri əhatə edən maraqlı tərəflər üçün nəzərdə tutulmuşdur.

Məzmunda 2025-ci ilin ortalarına qədər aparılan danışıqlar, milli təcrübələrin və institusional modellərin vəziyyəti əks olunur. Sürətlə dəyişən konteksti nəzərə alaraq, oxucular bu Bələdçini hazırkı vəziyyətin bir anlıq görüntüsü kimi qiymətləndirməlidirlər. Belə ki, sənəddə strukturlaşdırılmış anlayışlar, sınaqdan keçirilmiş praktikalar və istiqamətləndirici suallar təqdim olunur ki, bunlar formal qaydalar və sistemlər daha da inkişaf etdikcə faydalı olaraq qalır.

Bələdçinin hazırlanması zamanı praktiki təcrübə sahiblərinin fikirləri, ölkələr üzrə konkret keyslər və 6-cı Maddəyə dair strategiyaların hazırlanmasında iştirak edən ekspertlər və dövlət nümayəndələri ilə yerində aparılmış məsləhətləşmələr nəzərə alınmışdır. Oxuculara tövsiyə olunur ki, bu anlayışları praktikada tətbiq edərkən UNFCCC-nin ən son qərarları, ayrı-ayrı ölkələr üzrə hazırlanmış təlimatları və reyestr yeniliklərini nəzərə alsınlar.

# Fəsil 1: 6-cı Maddə nə üçün milli siyasət prizmasından əhəmiyyət kəsb edir ?

Parlament deputatları üçün Bələdçinin 6-cı Maddə və Karbon Bazarlarına dair birinci fəaslində 6-cı Maddəni iqlim dəyişikliyi sahəsində beynəlxalq əməkdaşlıq üçün yeni strateji imkan olaraq qəbul etmək üçün nəzəri əsasları təqdim edilir. Sonrakı fəsillərdə isə ölkələr və parlamentlər tərəfindən bunun praktikaya çevirməsi yolları - hüquqi mexanizmlər, institusional vəzifələr, əməkdaşlıq modelləri və icra strategiyaları - araşdırılır.

**Qlobal kontekst**

### 1.1 Paris Sazişi nədir [1]

Paris Sazişi, iqlim dəyişikliyi sahəsində hüquqi öhdəliklər yaradan beynəlxalq sazişdir və özündə iqlim fəaliyyətləri ilə bağlı qlobal çərçivəni təqdim edir. Bu saziş, özündən əvvəlki beynəlxalq saziş olan Kioto protokolunu təkmilləşdirmək və əvəz etmək məqsədi ilə hazırlanmışdır. Kioto protokolu istilik effekti yaradan qazların azaldılması məqsədilə məhdud sayda sənayeləşmiş ölkələrə tətbiq olunurdu. Paris Sazişi 12 dekabr 2015-ci il tarixində Fransanın Paris şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişikliyi Konfransında (COP21) 195 ölkə tərəfindən qəbul edilmiş və 4 noyabr 2016-cı ildə qüvvəyə minmişdir. Sazişin məqsədi "qlobal orta temperatur artımını sənayeləşmədən əvvəlki səviyyədən 2°C-dən xeyli aşağı saxlamaq" və "sənayeləşmədən əvvəlki səviyyədən 1,5°C-dən çox olmamaq üçün səy göstərmək"dir.

Paris Sazişinin 6-cı Maddəsində bu məqsədlərə, xüsusilə karbon bazarları və digər əməkdaşlıq yanaşmaları əsasında çatmaq üçün beynəlxalq əməkdaşlığın əhəmiyyəti vurğulanır.

### 1.2 6-cı Maddə qlobal landşaftı necə dəyişdirdi?

6-cı Maddə qlobal iqlim kontekstini dəyişərək beynəlxalq əməkdaşlığı iqlim fəaliyyətləri üçün formal bir alət olaraq təqdim etmiş, bununla da daxili təşəbbüslərdən kənarda işlərin görülməsi üçün əsas yaratmışdır.

Əsas səbəblər:

- **Xərclərin səmərəli istifadəsi**: Ölkələr artıq iqlim hədəflərinin bir hissəsinə digər ölkələrin az xərc tutumlu nəticələrindən öyrənməklə nail ola bilərlər. Bu, qlobal səviyyədə emissiyaların iqtisadi baxımdan ən səmərəli hesab olunan istiqamətlərdə azaldılmasına imkan verir.
- **Yeni maliyyə kanalları**: 6-cı Maddə karbon bazarları və qeyri-bazar mexanizmləri vasitəsilə iqlim maliyyəsinin inkişaf etməkdə olan ölkələrə axmasına yol açır.
- **Bazarların inteqrasiya olunması**: Paris Sazişi çərçivəsində beynəlxalq karbon bazarlarının formalaşmasını, bununla da ümumi qaydaların yaradılmasını, etibarın artırılmasını və daha geniş iştirakçılığın təmin olunmasını təşviq edir.
- **Ambisiyaların stimullaşdırılması**: Aydın mexanizmlərlərin tətbiqi ilə, ölkələrin milli öhdəliklərini (ölkə səviyyəsində müəyyən olunmuş Töhfələrdə (NDC) öz əksini tapir)

artırmaq ehtimalı daha yüksək olur, çünki əməkdaşlıq imkanlarının mövcud olduğunu bilirlər.

- **Kioto protokolu dövrünə aid alətlərin əvəzlənməsi**: 6.4-cü Maddədə Aydın İnkişaf Mexanizmləri (CDM) ətraf mühitin daha yaxşı qorunması təminatları və iştirakçılığın daha geniş şəkildə təmin olunması təşəbbüsləri ilə əvəz olunur və bütün ölkələr əhatə olunur.

Qısaca desək, 6-cı Maddə iqlim, bazarlar və inkişafı vahid qlobal çərçivə altında bir araya gətirir.

### 1.2 Qlobal kontekst

Paris Sazişinin 6-cı Maddəsi milli siyasət perspektivində böyük önəm daşıyır, çünki o, iqlim fəaliyyətləri sahəsində beynəlxalq əməkdaşlıq (xüsusilə də karbon bazarları vasitəsilə) üçün bazanı müəyyən edir və bu, ölkələrin öz iqlim hədəflərinə yanaşma tərzinə mühüm təsir göstərə bilər. Paris Sazişi qlobal iqlim mənzərəsini dəyişib. Ölkələr artıq öz iqlim hədəflərini müəyyən edirlər (bu hədəflər Milli səviyyədə Müəyyən Olunan Töhfələr adlanır) və onlardan əsas gözlənti həm daxili, həm də beynəlxalq səviyyədə tədbirlər vasitəsilə bu hədəflərə nail olmaqdır. İcra xərcləri artdıqca və ambisiyalar da yüksəldikcə, 6-cı Maddənin ölkələrin bu hədəflərə daha səmərəli və əlverişli şəkildə çatmasını təmin edən mexanizm kimi rolu da fərqlənir.

6-cı Maddədə əməkdaşlıq üçün həm bazar, həm də qeyri-bazar yanaşmaları vasitəsilə hüquqi və institusional alətlər təqdim olunur. Əgər düzgün həyata keçirilərsə, bu, emissiyaların azaldılmasına sərf olunan xərcləri aşağı sala, zəruri maliyyə vəsaitlərini səfərbər edə və ölkələr arasında ortaq dəyər yarada bilər. Əks halda, yəni düzgün yanaşılmadığı təqdirdə, ətraf mühitin qorunması işində problemlər yarana və ictimai etimad risk düşə bilər.

### 1.2 6-cı Maddə nədir? (Sadə dildə)

Paris Sazişinin 6-cı Maddəsində ölkələr üçün iqlim hədəflərinə çatmaqda və bu hədəfləri təkmilləşdirməkdə könüllü əsaslarla əməkdaşlıq mexanizmləri müəyyən olunur.

### Nə üçün 6-cı Maddə 6.2, 6.4 və 6.8-ci hissələrə bölünür?

Əməkdaşlığın müxtəlif istiqamətlərini nəzərə almaq üçün 6-cı Maddə üç hissəyə bölünmüşdür, yəni vahid yanaşma yoxdur. Maddənin bu formada tərtib olunması ölkələrə "vahid çərçivə" əsaslı yanaşmanı deyil, bazar əsaslı yanaşmalardan qeyri-bazar əməkadaşlıqlarına qədər müxtəlif iştirak üsullarını, məsələn, birbaşa ikitərəfli ticarət, qlobal kredit sistemi və ya siyasət əsaslı tərəfdaşlıqları seçməyə imkan verir.

- **Maddə 6.2** – Əməkdaşlıq Yanaşmaları: Ölkələr öz aralarında istilik effekti yaradan emissiyaları azaldılması fəaliyyətlərini (Emissiyaları Azaldılması Nəticələrinin Beynəlxalq səviyyədə Transferi – İTMO-lar) bir-birinə ötürə bilər, bir şərtlə ki, ikiqat hesablamalara yol verməmək üçün ciddi hesabat qaydalarına riayət olunsun. Bu ötürmələr açıq icazə tələb edir və milli iqlim hədəfləri ilə uyğunlaşdırılmalıdır. Qısaca desək, bu, Tərəflərə mühasibatlıq və hesabatların təqdim olunması sahələrində NDC-lərə (milli səviyyədə

müəyyən olunan töhfələrə) nail olmaq üçün ITMO-lardan (Emissiyaları Azaldılması Nəticələrinin Beynəlxalq səviyyədə Transferi) istifadə ilə bağlı müvafiq təlimatlar təqdim edir.

- **Maddə 6.4** – Yeni Beynəlxalq Kredit Mexanizmi: Bu mexanizm BMT orqanının nəzarəti altında olacaq və dövlət və özəl sektordan olan aktorlara mərkəzləşdirilmiş idarəetmə çərçivəsində emissiyaların azaldılmasının nəticələrini yaratmaq və ticarətini həyata keçirmək imkanı verəcək. O, Kioto Protokolunun Təmiz İnkişaf Mexanizmini (CDM) əvəz edir və davamlı inkişaf üçün yeni təminatlar ortaya qoyur.
- **Maddə 6.8** – Qeyri-Bazar Yanaşmaları: Bu istiqamətdə əsas diqqət karbon bazarlarından kənar əməkdaşlığa — məsələn, siyasət məsələlərinin koordinasiyası, texnologiya transferi və potensialın artırılmasına yönəldilmişdir. Bu yanaşma yalnız ticarət oluna bilən kreditlərə bel bağlamadan iqlim fəaliyyətlərinin həyata keçirilməsini dəstəkləyir.

Qeyd : Paris Sazişinin 6.2 və 6.4-cü maddələri karbon bazarları mövzusuna həsr olunsa da onlar eyni hesab olunmur və fərqli yanaşmaları özündə əks etdirir. 6.2-ci Maddədə ölkələr arasında karbon kreditlərinin ikitərəfli və ya çoxtərəfli ticarəti üçün əməkdaşlıq məsələlərindən bəhs olunur, 6.4-cü Maddədə isə mərkəzləşdirilmiş, BMT-nin nəzarəti altında karbon-kredit mexanizminin yaradılması qeyd olunur. (1)

Növbəti fəsildə 6-cı Maddəyə daha dərindən təhlil edəcəyik.

### 1.3. Nə üçün hökumət strukturları və qanunverici orqan nümayəndələri bu məsələyə diqqət yetirməlidirlər?

Maddə 6 yalnız iqlim üzrə danışıqları aparan şəxslər üçün nəzərdə tutulmayıb – bu, milli maraq mövzusu olan məsələdir. Belə ki, o ölkələr aşağıdakı imkanları təmin edir:

- Yeni iqlim maliyyələşdirmə mənbələrinə çıxış;
- Təmiz texnologiya sahələrinə investisiyaların cəlbi;
- Milli səviyyədə Müəyyən Edilmiş Töhfələrin (NDC-lərin) icrasına sərf olunan xərclərin azaldılması;
- Dayanıqlı inkişaf nəticələrinin gücləndirilməsi;
- Karbon erasında geosiyasi etibarlılığın qazanılması.

Qanunverici orqan üçün bu, müvafiq qanunların və büdcələrin qəbulu, nəzarət mexanizmlərinin yaradılması və əməkdaşlıq fəaliyyətlərində iqlim bütövlüyü məsələsinin təmin olunması deməkdir. Parlament deputatları, bir növ, etimadın qapıçısı və ambisiyaların təminatçılarıdır.

### 1.4 Fəaliyyətə / Liderliyə çağırış

6-cı Maddəyə dair qlobal qaydalar kitabı əsasən tamamlanmışdır. Artıq ölkə- ölkə icra mərhələsinə başlanmalıdır. Prosesə erkən başlayan dövlətlər müvafiq normaları müəyyən edə, bazarlara təsir göstərə və NDC-lər üzrə uzunmüddətli strategiyaları qoruya bilərlər.

Parlament deputatları və hökumət strukturları bu mərhələdə aşağıdakıları etməlidirlər:

- Hüquqi bazanın nəzərdən keçirilməsi və 6-cı Maddənin tələbləri ilə uyğunlaşdırılması;

- Nazirliklərarası əlaqələndirmənin və institusional potensialın gücləndirilməsi;
- Yüksək dəqiqliklə pilot fəaliyyətlərin icrasına və ikitərəfli sazişlərin bağlanmasına icazələrin verilməsi;
- Özəl sektor, vətəndaş cəmiyyəti və yerli özünüidarəetmə subyektləri ilə əməkdaşlığın həyata keçirilməsi;
- Hesabatlılığın şəffaflığının və fayda bölgüsünün təmin edilməsi.

6-cı Maddənin maliyyə potensialını (xüsusilə, meşəsalma və karbon çıxarılması üzrə) tam açmaq üçün hökumətlər xüsusi layihələrə icazə və torpaq mülkiyyəti məsələlərini sadələşdirməlidirlər. Eyni dərəcədə vacib olan digər amil isə yerli iqlim aktorlarının – QHT-lər, kooperativlər, yerli icmalar – Milli Reyestrinin yaradılmasıdır. Bu reyestr beynəlxalq səviyyədə "sıfır tullantı" investorları ilə birbaşa tərəfdaşlıq üçün imkanlar yaradır. Belə bir reyestr maneələri azaldır, şəffaflığı artırır və beynəlxalq səviyyədə iqlim fəaliyyətlərinə ayrılan maliyyəni inkişaf etməkdə olan ölkələrin real şəraiti ilə əlaqələndirir. Eyni zamanda, mövcud institusional maneələrin aradan qaldırılmasına kömək edir ki, bununla da qlobal iqlim kapitalı ilə yerli icraçılar arasında effektiv əlaqə qurulur. Sözügedən Milli Reyestr həmçinin iqlim maliyyəsi və digər karbon çıxarılması sahəsindəki investisiyalara imkan verir ki, hazırkı kanalları aşaraq inkişaf etməkdə olan ölkələrlə qlobal maliyyə imkanları arasında lazımi əlaqəni təmin edə bilsinlər.

Maddə 6 artıq nəzəri seçim hesab olunmur. Bu, iqlim, inkişaf və diplomatiya sahəsində milli prioritetlərin irəli aparılması üçün strateji alətdir.

**Əsas mesajlar və praktiki tövsiyələr**

- Maddə 6 Paris Sazişi çərçivəsində həyata keçirilən qlobal iqlim əməkdaşlığının əsas bazasıdır.
- O, ölkələr arasında bazar əsaslı və bazardan kənar əməkdaşlığ üçün imkanlar təmin edir.
- Qanunverici orqanlar milli səviyyədə hazırlığın, qanunvericilik və tənzimləmə sahəsində tələblərə uyğunluğun, eləcə də bazarın etibarlılığının formalaşdırılmasında mərkəzi rola malikdirlər.
- 6-cı Maddədə liderlik nümayiş etdirərək proseslərə vaxtından əvvəl qoşulma maliyyə imkanları yarada, ambisiyaları gücləndirə və beynəlxalq mövqeləri təmin edə bilər.

**İstifadə olunan mənbələr:**


(1)https://unfccc.int/sites/default/files/resource/parisagreement_publication.pdf#:~:text=objective%2C%20aims%20to%20strengthen%20the%20global%20response,to%20well%20below%202%20%C2%B0C%20above%20pre%2D

(2)https://unfccc.int/process-and-meetings/the-paris-agreement/article6#:~:text=Article%206%20of%20the%20Paris%20Agreement%20enables%20international%20cooperation%20to,financial%20support%20for%20developing%20countries.

(3) https://unfccc.int/file/432531/download?token=15HNkg7W

**Tövsiyə olunan ədəbiyyat:**


- https://unfccc.int/file/432531/download?token=15HNkg7W
- https://unfccc.int/sites/default/files/resource/Article_6.2_Reference_Manual.pdf
- UNFCCC. (2023). *Paris Sazişinin 6-cı Maddəsi.* https://unfccc.int/process-and-meetings/the-paris-agreement/article-6-of-the-paris-agreement
- Dünya Bankı. (2021). *Karbon Qiymətləndirməsi sahəsində Vəziyyət və Tendensiyalar.*
- IC-VCM. (2023). *Karbon Bazarları üçün Rəhbər Prinsiplər.*
- Climate Focus. (2022). *6-cı Maddənin İcrası üçün Hüquqi Baza.*

# Fəsil 2: 6-cı Maddə haqqında anlayışların artırılması – Üç mexanizm və yanaşma

Birinci fəsildə təqdim edilən əsaslandırmaya söykənərək, bu fəsildə Paris Sazişinin 6-cı Maddəsi üzrə üç əsas mexanizmi – Maddə 6.2, Maddə 6.4 və Maddə 6.8 təqdim edilir. Bu mexanizmlərin hər biri beynəlxalq əməkdaşlığa münasibətdə fərqli, lakin bir-birini tamamlayan yanaşmalar təklif edir: bazara əsaslanan ticarət, mərkəzləşdirilmiş kreditləşdirmə və bazardan kənar dəstək. Növbəti fəsillərdə icra modelləri və hazırlıq strategiyalarının araşdırılmasından öncə bu yanaşmaların funksiyalarının və qarşılıqlı əlaqələrinin aydın şəkildə başa düşülməsi önəmlidir.

**Mexanizmlərin anlaşılması:** 6.2-ci Maddədə İTMO-lar üzrə birbaşa ikitərəfli sazişlərin bağlanması imkanlarından bəhs olunur. Maddə 6.4-də isə daha iri miqyaslı layihələr üçün standartlaşdırmanın aparılması təklif edilir. Dövlətlər hər iki mexanizm üzrə özəl sektor tərəfindən həyata keçirilən meşə salma fəaliyyətləri üçün icazə prosedurlarını dəqiq müəyyən etməlidirlər. Yerli ekoloji subyektlərin (QHT-lər, kooperativlər, yerli icmalar) məcburi dövlət reyestrinin yaradılması da vacibdir. Bu, etibarlı icraçıların alıcılarla yoxlanılmış şəkildə əlaqələndirilməsinə imkan verir, etimadı artırır və məlumatların parçalanması imkanlarını azaldır.

### 2.1 Maddə 6.2 – Əməkdaşlıq üçün yanaşmalar və ITMO-lar

6.2-cı Maddədə ölkələrə emissiya azaldılmalarını bir-birinə ötürmək üçün ikitərəfli və ya çoxtərəfli razılaşmalar bağlamağa imkan verir. Bunlar Beynəlxalq səviyyədə Transfer olunan Emissiyaların Azaldılmasının Nəticələri[(2)] (ITMO-lar) adlanır. Ölkələrə NDC-lərə nail olmaq üçün transfer etməyə icazə verilir, bir şərtlə ki, ikiqat hesablamaya yol vermədən düzgün uçot prinsiplərinə əməl olunsun.

Əsas anlayışlar:

- İcazələr: Transfer edən ölkə ITMO-ların NDC məqsədləri üçün istifadəsinə birbaşa icazə verməlidir.
- Müvafiq Düzəlişlər[(2)]: Milli istilik effekti yaradan qazlara dair hesabatlarda düzəlişlər aparılır, azalmanın daxili hesabatlara daxil edilmədiyi göstərilir.
- Çeviklik: ITMO-lar müxtəlif formalarda ola bilər (məsələn, ton $CO_2$ ekvivalenti, MWh bərpa olunan enerji, udulmuş karbon vahidləri və s.), tərəflərin razılığı əsasında müəyyən edilir.

**Əhəmiyyəti:** 6.2-ci[(2)] Maddədə emissiyaların azaldılması fəaliyyətlərində beynəlxalq əməkdaşlığı təmin etməklə xərclərin səmərəliliyi və ambisiyaların artırılması imkanları göstərilir.

### 2.2 Maddə 6.4 – Mexanizm

Maddə 6.4[(3)]-ə əsasən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) çərçivəsində mərkəzləşdirilmiş kreditləşdirmə mexanizminin təsis olunur. Bu mexanizm Kioto Protokolunun CDM mexanizminə bənzəyir. Dövlət və özəl subyektlər emissiyaların azaldılması istiqamətində layihələr həyata keçirə və NDC-lərdə istifadə üçün kreditlər

yarada bilərlər. Mexanizm Müşahidə Orqanı tərəfindən idarə olunur və dayanıqlı inkişafla yanaşı, ekoloji dürüstlüyə dair güclü təminatları özündə ehtiva edir.

**Əsas anlayışlar:**

- Mərkəzləşdirilmiş Nəzarət: UNFCCC-nin Müşahidə Orqanı tərəfindən idarə olunur.
- Geniş İştirakçılıq: Həm dövlət, həm də özəl sektor subyektlərini əhatə edir.
- Dayanıqlı İnkişaf: Layihələr BMT-nin Davamlı İnkişaf Məqsədlərinə (DİM-lərə) töhfə verdiyini sübut etməlidirlər.

Əhəmiyyəti: Maddə 6.4[(3)] standartlaşdırma və şəffaflıq təmin etməklə bazara daha çox sərmayə cəlb edə və inamı artıra bilər.

### 2.3 Maddə 6.8 – Qeyri-bazar yanaşmalar (NMA-lar)

Maddə 6.8[(4)] emissiyaların azaldılması və adaptasiya tədbirləri sahəsində qeyri-bazar əsaslı əməkdaşlığın əhəmiyyətini tanıyır. Bu yanaşmalara texnologiya transferi, potensialın gücləndirilməsi və iqlim maliyyəsinin dəstəklənməsi daxildir. Bu mexanizmlər Qlazqo Komitəsi[(4)] tərəfindən əlaqələndirilir və bazar mexanizmlərini tamamlayır.

**Əsas anlayışlar:**

- Geniş Əhatə Dairəsi: Karbon bazarlarından kənar əməkdaşlığa fokuslanır.
- İnstitusional Dəstək: NMA-lar üzrə Qlazqo Komitəsi vasitəsilə idarə olunur.
- Sinerji: Davamlı İnkişaf Məqsədlərinə uyğunlaşdırılmış və inteqrasiya olunmuş həllər təklif edir.

Əhəmiyyəti: NMA-lar[(4)] 6-cı Maddənin iqlim fəaliyyətlərində holistik (hərtərəfli) və inklüziv yanaşmaları dəstəkləməsini təmin edir.

**Üç mexanizm arasında əsas fərqlər:**

| **Xüsusiyyət** | **Maddə 6.2 (Əməkdaşlığa söykənən yanaşmalar)** | **Maddə 6.4 (Mexanizm)** | **Maddə 6.8 (Qeyri-bazar yanaşmaları)** |
|---|---|---|---|
| Xüsusiyyət | İkitərəfli / Çoxtərəfli Kredit Transferləri | UNFCCC-nin Nəzarəti altında Kreditləşdirmə Mexanizmi | Kreditə əsaslanmayan Əməkdaşlıq |
| İdarəetmə | Ölkə tərəfindən idarə olunan | UNFCCC Müşahidə Orqanı tərəfindən idarə olunur | Qlazqo Komitəsi tərəfindən istiqamətləndirilir |
| Çeviklik | Yüksək (fərdi şərtlər, ITMO formatları) | Orta (standartlaşdırılmış metodologiyalar) | Yüksək (siyasət alətləri, karbon vahidləri yoxdur) |
| Kreditlərdən istifadə | NDC-lər üçün Müvafiq Düzəlişlər tələb olunur | NDC-lər və könüllü istifadə üçün CA tələb olunur | Kredit və ya transfer nəzərdə tutulmur |

| | | | |
|---|---|---|---|
| Özəl sektorun rolu | Qəbul edən / alıcı ölkənin təsdiqi ilə mümkün olur | Qeydiyyatdan keçmiş layihələr vasitəsilə birbaşa iştirak | Məhdud (əsasən dövlət sektoru) |
| Tranzaksiya xərci | Daha aşağı | Daha yüksək (BMT-nin nəzarətinə görə) | Minimum səviyyədə |
| Kimlər üçün münasibdir | Inkişaf etmiş ölkələr və ya ikitərəfli razılaşmalar | Etibarlılıq və dürüstlük axtaran ölkələr | Bacarıqların artırılması, adaptasiya, əməkdaşlıq |

**2.4 Üç Mexanizm arasındakı qarşılıqlı əlaqələr**

6.2(2), 6.4(3) və 6.8(4) -ci Maddələr ayrı-ayrı mexanizmlər kimi tərtib edilsə də, praktikada onlar tez-tez bir-biri ilə üst-üstə düşür. Bir çox ölkələr ilkin mərhələdə bu maddələri müstəqil şəkildə tətbiq edirlər, lakin onların praktiki olaraq bir-biri ilə əlaqəli olması artıq daha çox ölkə tərəfindən qəbul edilir.

Qarşılıqlı əlaqələrə aid nümunələrə aşağıdakıları göstərmək olar:

- Emissiyaların azaldılması fəaliyyətlərini könüllü standartlar çərçivəsində 6.4(3) -cü maddə əsasında başlamaq və daha sonra isə ikitərəfli sazişlər vasitəsilə 6.2(2)-ci maddə ilə ticarət fəaliyyətlərinə icazə verilə bilər.
- 6.8(4) -cü Maddə çərçivəsində bazardan kənar yanaşmalar—məsələn, texniki yardım və ya qrantlar — gələcəkdə 6.4(3) və ya 6.2(2) -ci maddələr üzrə kreditləşdirilə bilən fəaliyyətlər üçün əlverişli şərait yarada bilər.
- Ölkələr 6.4(3) -cü maddəni standartlaşdırılmış kreditlər yaratmaq məqsədilə istifadə edə və milli maraqlar və strateji tərəfdaşlıqlar nəzərə alınmaqla onların 6.2(2) maddə çərçivəsində istifadəsinə seçmə prinsipi əsasında icazə verə bilərlər.

6-cı Maddənin effektiv həyata keçirilməsi üçün bütün üç mexanizm üzrə planlaşdırma işlərinin inteqrasiya olunması tələb olunur. Hökumətlər siyasətləri belə tərtib etməlidir ki, mexanizmlər arasında keçid və qarşılıqlı əlaqə təmin edilsin.

**2.5 Siyasət İcmalı: Özəl sektor və yerli icma tərəfindən meşələrin salınmasının təşviqi**

- 6.2-ci maddə yerli icma tərəfindən həyata keçirilən meşə salınması (ağac əkmə) kimi fəaliyyətlərdən ikitərəfli ITMO transferlərinə imkan yaradır.
- 6.4-cü maddə daha geniş miqyaslı və ya özəl sektor tərəfindən meşələrin salınması (ağac əkmə) layihələri ilə bağlı standartlaşdırılmış istiqamətləri təqdim edir.
- Hökumətlər hər iki mexanizm çərçivəsində belə layihələrə icazənin verilməsi mexanizmlərini dəqiqləşdirməlidir.

**Ədəbiyyat siyahısı**

1.UNFCCC. (2015). Paris Sazişi. Mənbə: https://unfccc.int
2.UNFCCC Maddə 6.2 Təlimat və Hesabat alətləri.

3.IC-VCM. (2023). İcra təlimatları.
4. Qızıl Standart. (2024). Maddə 6. Hazırlıq Paketi.
5. Dünya Bankı. (2023). Karbon qiymətləri ilə bağlı vəziyyət və tendensiyalar

**Tövsiyə olunan ədəbiyyat:**

https://unfccc.int/file/432531/download?token=15HNkg7W

# Fəsil 3: 6-cı Maddə üzrə mexanizmlərdə iştirakın ölkə üçün nəticələri

2-ci fəsildə 6-cı Maddə çərçivəsində nəzərdə tutulmuş bütün üç mexanizm ilə əsas anlayışlar təqdim olunur. Bu fəsildə isə belə əməkdaşlığın ümummilli təsirləri araşdırılır. Burada effektiv və etibarlı iştirakın təmin edilməsi məqsədilə 6-cı Maddə çərçivəsində fəaliyyətlərdə iştirakın ölkələrin Milli səviyyədə Müəyyən Edilmiş Töhfələri (NDC-lər) ilə necə uyğunlaşdırılacağı, siyasət kompromislərini necə idarə edəcəkləri və institusional çərçivələri necə işləyib hazırlayacaqları ilə bağlı məsələlərə diqqət yetirilir.

### 3.1. 6-cı Maddənin NDC-lər və uzunmüddətli strategiyalarla uyğunlaşdırılması

6-cı Maddədə iştirak yalnız karbon ticarəti ilə məhdudlaşmır — belə ki, o, strateji olaraq ölkənin iqlim və inkişaf trayektoriyası ilə uyğunlaşdırılmalıdır. 6-cı Maddə üzrə əməkdaşlıq yalnız gəlir aləti kimi deyil, ambisiyaların artırılması, əlavə imkanların (faydaların) yaranması və uzunmüddətli dekarbonizasiya prosesinin sürətləndirilməsi istiqamətində həyata keçirilməlidir.[1]

### 3.2. Kompromislərin idarə edilməsi: Gəlirlər və emissiyaların azaldılması

Ölkələr strateji dilemmalarla üzləşirlər: ITMO-ların satışı qısamüddətli gəlir yaradır və investisiyalara yol açır, lakin aşırı və ya vaxtsız həyata keçirilən transferlər uzunmüddətli emissiyaların azaldılması ambisiyalarını məhdudlaşdıra və NDC öhdəliklərinin icrasını zəiflədə bilər. Bu kompromislər yalnız texniki xarakter daşımır, onlar ölkənin yaxın müddətli perspektivdə maliyyə imkanlarına münasibətdə gələcək karbon emissiyasını necə dəyərləndirdiyini əks etdirən daha dərin siyasət seçimləridir.

Hökumət strukturlarının qarşısında duran əsas suallar bunlardır:

- Uzunmüddətli hədəflərə xələl gətirmədən və gələcəkdə NDC-lərdə yeniləmələrin aparılmasında çevikliyi məhdudlaşdırmadan emissiya azaldılmalarının hansı hissəsi satıla bilər?
- 6-cı Maddədən əldə olunan gəlirlər daxili dekarbonizasiya və ya iqlim fəaliyyətlərinin davamlılığının gücləndirilməsinə yönəldilə bilərmi?
- Fiskal planlaşdırılma 6-cı Maddə üzrə gəlirlərin qeyri-müəyyənliyi və dəyişkənliyindən asılılığın qarşısını necə ala bilər?
- Milli məqsədlərə çatmaq üçün hansı hüquqi və institusional təminatlar (məsələn, ITMO limitləri, ləğv edilə bilən icazələr) tətbiq edilə bilər?

Kompromislərin bu formada balanslaşdırılması emissiya azaldılması potensialının yüksək olduğu, lakin baza məlumatlarının (məsələn, torpaqdan istifadə, yemək bişirmə sobaları, nəqliyyat) məhdud olduğu sektorlarda xüsusilə mühüm əhəmiyyət daşıyır.

### 3.3. Özəl sektorun və qeyri-dövlət subyektlərinin (aktorların) rolu

6-cı Maddə üzrə ITMO-ların əksəriyyətini özəl və qeyri-dövlət sektorundan olan subyektlər yaradacaq. Hökumətlər nəzarəti saxlamaqla çıxışı təmin etməlidirlər. [3]

**Tövsiyə olunan siyasət tədbirləri:**

- Özəl sektorun iştirakına icazə verilməsi üçün müvafiq qaydalar işlənib hazırlanmalıdır.
- Layihə təşəbbüskarlarından ekoloji və sosial təminatların, o cümlədən insan hüquqlarının, FPIC[1]-in və yerli məsləhətləşmələrin təmin edildiyini nümayiş etdirmələri tələb edilməlidir.
- Xüsusilə torpaqdan istifadə ilə əlaqəli sektorlarda ədalətin təmin olunması məqsədilə müvafiq gəlir bölgüsü mexanizmləri tətbiq olunmalıdır.
- Dövlət– qeyri-dövlət sektorlarında dialoq platformaları, eləcə də təkmilləşdirmələrin aparılması ilə bağlı rəy bildirmə mexanizmləri təşviq edilməlidir.

Peru və İndoneziya kimi ölkələr iştirakın sadələşdirilməsi məqsədilə özəl sektor üçün icazə portalları işə salmış və ilkin qiymətləndirmələrin aparılmasına dair təlimatlar işləyib hazırlamışdır.

### 3.4 Ölkə növlərinə görə imkanlar və risklər

Aşağıdakı cədvəldə 6-cı Maddədə iştirakın yaratdığı imkan və risklər nisbəti təqdim olunur [7,8,9]

| **Ölkə növü** | **İmkanlar** | **Risklər** |
|---|---|---|
| Ən az inkişaf etmiş ölkələr (LDCs) / Kiçik ada inkişaf etməkdə olan dövlətlər (SIDS) | Maliyyə, bacarıqların artırılması və texnologiya transferi əlçatandır | Hazırlıq səviyyəsinin aşağı olması; elita tərəfindən ələ keçirilmə riski; hüquqi qeyri-müəyyənlik |
| İnkişaf etməkdə olan ölkələr | Qaydaların formalaşmasına təsir; qarışıq maliyyə; regional pilot layihələr | Siyasi risklər; reyestrdə boşluqlar; rəqabətli prioritetlər |
| İnkişaf etmiş ölkələr | NDC-lərin səmərəli icrası; etibarlılıq (mənbələrin yüksək dəqiqliklə seçimi ilə) | Kompleks ekspertizanın zəif aparılması yaxud tərəfdaşlıqları zəif olması səbəbindən nüfuz riskləri |

Reyestr sistemləri, konsultasiya prosesləri və ya fayda bölgüsü qaydaları zəif və ya qeyri-müəyyən olduqda ikiqat hesablama, korrupsiya və reputasiya itkiləri riski daha yüksəkdir. [4,5]

### 3.5 Hökumət strukturları və Parlament deputatları üçün Əsas Mesajlar

- 6-cı Maddə alətdir — qısa yol deyil. O, uzunmüddətli iqlim ambisiyalarını dəstəkləməli, zəiflətməməlidir.
- Pilotlarla başlayın və zamanla potensialı artırın; icazələrə tələsməyin.
- 6-cı Maddədən investisiya cəlb etmək, sektorlar üzrə keçidləri dəstəkləmək və ədalətli nəticələri təşviq etmək üçün istifadə edin.

- Layihənin təsdiqindən tutmuş gəlirlərin istifadəsinədək hər mərhələdə şəffaflıq və məsləhətləşməni təmin edin.

Bu prinsiplər güclü milli çərçivələr və etibarlı standartlarla dəstəklənməlidir.[6]

**3.6 Torpaqdan istifadə və aktorların tanıtımı əsasında icmanın həyata keçirdiyi meşəsalma fəaliyyətlərinin dəstəklənməsi**

Meşəsalma inkişaf etməkdə olan ölkələr üçün onların Milli Səviyyədə Müəyyənləşdirilmiş Öhdəliklərinə (NDC) uyğun olaraq, aşağı xərc hesabına emissiyaların azaldılması potensialını təqdim edir. Bu potensialdan tam istifadə etmək üçün ölkələr və onların parlamentləri **icma təşəbbüsləri ilə həyata keçirilən meşəsalma layihələri üçün özəl sektor tərəfindən investisiyaların qoyulması məqsədilə uyğun torpaq sahələrini qabaqcadan müəyyən etməli** və əldə ediləcək **faydaların bölüşdürülməsi mexanizmlərini müəyyənləşdirməlidirlər**.

Yerli subyektlərin (ağac əkmə ilə məşğul olan QHT-lər, su /enerji kooperativləri) təsdiqlənmiş reyestrinin 6-cı Maddənin milli səviyyədə idarə olunması prosesinə inteqrə olunması layihə tərəfdaşlarına yerli bacarıqları artırmağa və ortaq dəyərin əldə olunmasına, eyni zamanda zəif icra risklərini azaltmağa imkan verir.

Bir çox hallarda kənd icmaları formal mülkiyyət sənədləri olmadan torpağa sahib olur və ya ondan istifadə edirlər. Torpaq hüquqlarının sənədləşdirilməsi işinin asanlaşdırılması və mülkiyyətin (istifadə hüququnun) dəqiqləşdirilməsi layihənin həyata keçirilməsi və investor etimadının qazanılması baxımından vacib hesab olunur.

Bundan əlavə, təsdiqlənmiş yerli subyektlərin – məsələn, ağac əkmə sahəsində fəaliyyət göstərən QHT-lərin, su və ya enerji kooperativlərinin, həmçinin yerli icma təşkilatlarının – açıq reyestrinin 6-cı Maddənin milli səviyyədə idarəçiliyinə inteqrə olunması layihə tərəfdaşlıqları işini yaxşılaşdıra, yerli potensialı gücləndirə və ortaq dəyərin yaradılmasına xidmət edə bilər. Bu, eyni zamanda icra risklərini azaldır və ədalətli nəticələrin ortaya qoyulmasına dəstək olur.

**Ölkələr və parlamentlər üçün mərhələli yol xəritəsi**

| **Mərhələ** | **Əsas fəaliyyətlər** |
|---|---|
| Qısa müddəti | **6-cı Maddə çərçivəsində iştirak üçün açıq olan NDC sektorlarının müəyyənləşdirilməsi və icazə prosedurlarının təsis edilməsi.** |
| Orta müddətli | Hüquqi və institusional təminatların yekunlaşdırılması; özəl sektor üçün qaydaların işlənib hazırlanması |
| Uzun müddətli | 6-cı Maddənin uzunmüddətli aşağı emissiyalı inkişaf strategiyalarına (LT-LEDS), maliyyə çərçivələrinə və milli inkişaf planlarına inteqrasiyası |

**Ədəbiyyat siyahısı**

**1. Sərbəst, əvvəlcədən verilmiş və bilgiyə əsaslanan razılıq (FPIC)** yerli xalqların beynəlxalq hüquqa əsasən, onların ərazilərinə və ya resurslarına təsir göstərə biləcək layihəyə razılıq vermək və ya ondan imtina etmək üzrə xüsusi hüququdur.

**2. Qana EPA – 6-cı Maddədə iştirak üçün milli çərçivə**
*Qananın 6.2.-ci Maddə üzrə Çərçivə sənədi*
Download Ghana 6.2 Framework (PDF)

**3. WRI –** *Etibarlı və 6-cı Maddə üzrə İcazə Qaydalarının tərtib olunması*
https://www.wri.org/insights/what-you-need-know-about-article-6-paris-agreement

**4. ICAT** –6-cı Maddə çərçivəsində dayanıqlı inkişaf üzrə Təlimat
https://climateactiontransparency.org/our-work/icat-toolbox/transparency-for-article-6/

**5. İqlim Analitikası – 6-cı Maddə çərçivəsində əməkdaşlıq zamanı aşırı satış riskləri**
https://climateactiontracker.org/about/legal/#:~:text=As%20the%20controller%2C%20the%20organisations%20behind%20the,of%20personal%20data%20processed%20through%20this%20website.

**6. Qızıl Standart – 6-cı Maddənin tətbiqi**: *20 ölkədə hazırlıq vəziyyətinin icmalı*
https://goldstandard.org/sites/default/files/implementing_article_6-an_overview_of_preparations_in_selected_countries.pdf

***7. IC VCM*** – *Əsas Karbon Prinsipləri / Əlçatanlıq Strategiyası üzrə Alətlər Dəsti*
https://icvcm.org/wp-content/uploads/2024/05/CCP-Book-V3-FINAL-LowRes-10May24.pdf

***8. İƏİT / IETA ekvivalenti*** – *ERCST Maddə 6 üzrə Hazırlıq Çərçivəsi (Qərbi Afrika üzrə keyslərin araşdırılması)*
https://ercst.org/wp-content/uploads/2022/06/Article-6-Readliness-Blueprint.pdf

**9. Əməkdaşlıq yanaşmaları üçün ölkə çərçivələrinin tərtib olunması** *(tam alətlər dəsti)*
https://ndcpartnership.org/knowledge-portal/climate-toolbox/article-6-readiness-toolkit

# Fəsil 4: Hüquqi, İnstitusional və Texniki Hazırlıq – Tələb olunan əsas şərtlər

Bu Fəsildə 6-cı Maddədə iştirakın milli nəticələrinin düzgün başa düşülməsi – ölkə növlərinə görə risklərin və imkanların müəyyən edilməsi və mümkün kompromislərin idarə olunması (3-cü fəsildə nəzərdən keçirilmişdir) əsasında hüquqi, institusional və texniki hazırlığa, habelə təmin edilməsi vacib hesab olunan əsas şərtlərə diqqət yetirir.

### 4.1 6-cı Maddə üzrə Milli İnsititusional Bazanın yaradılması

6-cı Maddənin tətbiqi üçün ölkələr və parlamentlər aşağıdakı səlahiyyətlərə malik milli səlahiyyətli orqanını ayırmalıdır: emissiyaların azaldılması tədbirlərinə icazənin verilməsi, ITMO-ların (Emissiya Azaldılmalarının Beynəlxalq səviyyədə Ötürülməsi) təsdiqi, UNFCCC-nin hesabatlılıq tələblərinə uyğunluğun təmin edilməsi. Bu orqan iqlim nazirliyi tərkibində və ya ona hesabat verən qurum çərçivəsində fəaliyyət göstərməlidir. Eyni zamanda maliyyə, xarici işlər, planlaşdırma nazirlikləri və digər aidiyyəti sektorlar üzrə nazirliklər (enerji, metallurgiya, kənd təsərrüfatı, nəqliyyat və s.) ilə sıx əməkdaşlıq şəraitində işləməlidir.

Bir çox hökumətlər praktiki çətinliklərlə üzləşirlər: hələ rəsmi səlahiyyətli qurum təyin edilməmişdir, ITMO təsdiq prosesi mövcud deyil və hansı nazirliyin Maddə 6 üzrə əlaqələndirmə işlərinə rəhbərlik etməsi ilə bağlı institusional qeyri-müəyyənlik mövcuddur. Buna görə də səlahiyyətlərin dəqiq müəyyənləşdirilməsi, qurumlararası prosedurların formalaşdırılması və siyasi məsuliyyətin paylaşılması zəruridir.

Qabaqcıl təcrübələrə aşağıdakılar daxildir:

- Aparıcı nazirliyin sədrliyi ilə qurumlararası idarə heyətinin yaradılması;
- ITMO-ların təsdiqi və müvafiq düzəlişlər üzrə rəsmi prosedurların hazırlanması;
- 6-cı Maddədə verilmiş səlahiyyətlər çərçivəsində texniki, hüquqi və MRV (monitorinq, hesabatlılıq, təsdiqləmə) nəzarəti ilə bağlı vəzifələrin aydın şəkildə bölüşdürülməsi;
- idarə heyəti və nazirliklərin parlamentə müntəzəm qaydada hesabat təqdim etməsinin təmin olunması.

### 4.2 Qanunvericilik bazası və parlament fəaliyyəti üçün nəticələr

Milli qanunvericilik və normativ-hüquqi aktlara dəyişikliklərin edilməsi və ya yeni aktların qəbul edilməsi tələb oluna bilər. Bura aşağıdakılar daxildir:

- ITMO-ların hüquqi tanınması və onların beynəlxalq səviyyədə ötürülməsinə icazə verilməsi;
- ətraf mühit və sosial təminatların məcburi inteqrasiyası;
- milli iqlim qanunlarının Paris Sazişi üzrə öhdəliklərlə uzlaşdırılması;
- gəlirlərin bölgüsü, faydaların icmalarla paylaşılması və şikayətlərin həlli mexanizmlərinin müəyyənləşdirilməsi.

Parlamentlər demokratik nəzarət, büdcə bölgüsü və ictimai hesabatlılığı təmin etməkdə əsas rol oynayır. Həmçinin aşırı satış, tələblərə uyğun gəlməyən stimullaşdırıcı

mexanizmlərin tətbiqi yaxud milli iqlim məqsədlərinin aşağı tutulması kimi risklərə qarşı mübarizədə qanunvericilik tədbirlərinə ehtiyac duyulur.

Qabaqcıl təcrübələr:

- 6-cı Maddənin tələblərinə uyğun olaraq milli hüquqi bazada boşluqların təhlilinin aparılması;
- iqlim və maliyyə üzrə parlament komitələrinin erkən mərhələdə normativ aktların hazırlanmasına cəlb edilməsi;
- əsas dövlət qurumlarının (idarə heyətləri, nazirliklər) illik dinləmələrinin təmin edilməsi;
- müdafiə tədbirləri və fayda paylaşımı üzrə ictimai dinləmələrin və məsləhətləşmələrin təşkili.

### 4.3 İnstitusional İnfrastruktur: Reyestrlərin, MRV (ölçmə, hesabatlılıq və yoxlama) və İzləmə Sistemlərinin tətbiqinə icazənin verilməsi

Əhatəli milli reyestrlərin olması mütləq tələbdir və belə reyestrlərin saxlanması beynəlxalq elmi-texniki bilik mübadiləsi ilə dəstəklənməlidir.

- **Reyestr Sistemi:** Bir çox ölkələrdə hələ də ITMO-ların verilməsini, icazələrin verilməsini, transferini və ləğvini özündə ehtiva edən rəqəmsal milli reyestr mövcud deyil.[3] Bu, ləngimələrə və reputasiya risklərinə gətirib çıxarır.
- **MRV Çərçivəsi:** Milli səviyyədə monitorinq, hesabatlılıq və təsdiqləmə sistemləri UNFCCC-nin təlimatları ilə uyğun olmalı və layihə icraçıları, aidiyyəti nazirliklər və 6-cı Maddə üzrə səlahiyyətli orqan arasında məlumatların real vaxt rejimində dövriyyəsini əks etdirməlidir.
- **Hesabat Alətləri:** Ölkələr Maddə 6.2 üzrə İlkin Hesabatı, İllik Hesabatı (Razılaşdırılmış Elektron Formatda), İkiillik Şəffaflıq Hesabatlarını və mümkün olduğu təqdirdə, strukturlaşdırılmış xülasələri hazırlamalıdır. Bu hesabatlar ardıcıllıq əsasında olmalı, ikili hesablamalara yol verməməli və NDC üzrə gedişatın izlənilməsinə imkan yaratmalıdır.[4]

**Qabaqcıl təcrübələr:**

- Reyestr sistemlərinin hazırlanması üçün müvafiq təcrübəsi olan ölkələrlə və platformalarla (BMTİP, Dünya Bankı – Climate Warehouse[4]) tərəfdaşlıq;
- IPCC qaydaları və 6-cı Maddədə təsbit olunmuş prosedurlar ilə uyğun təşkil edən açıq mənbəli MRV alətlərindən istifadə;
- Milli reyestr, MRV və NDC-lərə aid izləmə məlumatlarını real vaxt rejimində inteqrasiya edən tablolardan istifadə;
- Maddə 6.2. çərçivəsində beynəlxalq ITMO əməliyyatlarının aparılmasına hazırlıq və hesabatların uyğunlaşdırılması üçün UNFCCC-nin Beynəlxalq Reyestri ilə əlaqələndirmə;

- Şəffaflığı artırmaq və ikili hesablamanın qarşısını almaq üçün blokçeyn əsaslı reyestr həllərinin araşdırılması;
- Məlumatın təhlükəsiz və dəyişdirilməz qeydiyyatı üçün (xüsusilə, Layihə səviyyəsində MRV və buraxılışlar üçün) blokçeynin sınaqdan keçirilməsi;
- əvvəlcədən müəyyən edilmiş qaydalar əsasında uyğunlaşdırma mexanizmlərini, buraxılış və müvafiq düzəlişləri avtomatlaşdırmaq məqsədilə "ağıllı müqavilələr"dən istifadə.

**4.4 Hüquqi Təminatlar: Şəffaflıq, Ədalət və Ətraf Mühitin Bütövlüyü**

6-cı Maddə çərçivəsində iştirak həm ətraf mühitin bütövlüyünü, həm də ictimai etimadı qorumaq baxımından güclü hüquqi təminatlarla əsaslandırılmalıdır. Milli çərçivələrdə aşağıdakılar təmin edilməlidir:

- Güclü mühasibatlıq sayəsində emissiyaların azaldılmasında ikili hesablanmaların qadağan olunması[1];
- məlumatlara ictimai çıxış və əməliyyat qeydlərinin açıqlığı[6];
- yerli icmaların Sərbəst, Əvvəlcədən verilmiş və Bilgiyə əsaslanan Razılıq (FPIC) prinsipi əsasında hüququnun qorunması;
- "yaşıl yalan"nın (ekoloji meyarların bilərkədən saxtalaşdırılması) qarşısının alınması və emissiyaların azaldılması tədbirlərinin milli fəaliyyətləri əvəz etməməsi.

Vətəndaş cəmiyyətinin iştirakı, şəffaflıq platformaları və şikayətlərin həlli mexanizmləri həm qanunvericilikdə, həm də praktikada təsbit olunmalıdır.

**Qabaqcıl təcrübələr:**

- FPIC və ətraf mühit təminatlarının icazələrin verilməsi və transfer qanunvericiliyində təsbit olunması;
- şikayətlərin şəffaf və əlçatan qaydada həlli üçün müstəqil mexanizmlərin yaradılması;
- vətəndaş cəmiyyətinin layihə məlumatlarını izləyə bilməsi üçün 6-cı Maddə üzrə ictimaiyyət üçün reyestrlərin yaradılması.

Hökumət strukturları və Parlament deputatları üçün mərhələli yol xəritəsi

| **Mərhələ** | **Tədbirlər** |
|---|---|
| Qısa müddətli (0–1 il) | 6-cı Maddə üzrə Milli səlahiyyətli orqanının təyin edilməsi; nazirliklərarası komitənin yaradılması.<br>ITMO-lara icazələrin verilməsi və reyestrin yaradılması ilə bağlı qanuvericiliyin ilkin hüquqi ekspertizası. |
| Orta müddətli (1–2 il) | MRV çərçivəsinin hazırlanması; milli reyestr sisteminin ilkin layihəsinin istifadəyə verilməsi; əldə edilən faydaların paylaşılması və təminatlar üzrə normativ aktların qəbul edilməsi. |

| | |
|---|---|
| Uzun müddətli (2–4 il) | İnstitusional prosedurların tamamlanması; 6-cı Maddənin milli hesabatlara inteqrasiyası;<br>Regional əməkdaşlıq və təcrübə mübadiləsi şəbəkələrinin yaradılması. |

**Əsas mesajlar və praktiki tövsiyələr**

- Ölkələrdə 6-cı Maddə üzrə nazirliklər arası mexanizmləri və parlament nəzarətini özündə ehtiva edən xüsusi səlahiyyətli orqan olmalıdır.
- Hüquqi səlahiyyətlərdə ITMO-ların təsdiqi, təminatlar və reyestr əməliyyatlarını əhatə etməsi üçün yeniləmələr aparılmalıdır.
- İnfrastruktur çatışmazlıqları – xüsusilə reyestrlər və MRV – hazırlığı çətinləşdirən əsas məhdudiyyətləridir.
- Parlament tərəfindən tədbirlərin görülməsi transferlərin legitimləşdirilməsi, faydaların icmalara çatdırılması və iqlim ambisiyalarının qorunması baxımından vacib əhəmiyyət kəsb edir.
- Şəffaflıq, yerli icmaların hüquqları və yerdəyişmələrə (əvəzləmələrə) yol verilməməsi hüquqi təminatlarla qorunmalıdır.
- Emissiyaların uçotundan əlavə, sistemlərdə müvafiq sahələrdə (meşə təsərrüfatı, bərpa olunan enerji, su təsərrüfatı) fəaliyyət göstərən bütün yerli təşkilatların qeydiyyatını aparan ayrıca modul olmalıdır. "Tərəfdaşlar qatı" adlanan bu modul kompleks ekspertizaların aparılmasına, investorlara çıxışa və beynəlxalq platformalarla uyğunlaşdırmaların aparılmasına imkan verir. Dövlətlər 6-cı Maddə üzrə fəaliyyətlərdə iştirak etmək istəyən bütün qurumlar üçün məcburi qeydiyyat tələbini təsbit etməli, şəffaflığı, əlçatanlığı və ekosistem üzrə tanıtımı təmin etməlidirlər.
- Qana, Çili, Tailand kimi qabaqcıl ölkələrin təcrübəsindən istifadə, pilot layihələr və təcrübə mübadiləsi hazırlıq mərhələsindəki boşluqları aradan qaldırmağa kömək edə bilər.

**Ədəbiyyat siyahısı:**

**1. BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC), Maddə 6.2 üzrə Təlimat (2022)** – https://unfccc.int/documents/460957

**2. Climate Focus: Maddə 6-nın İcrası üçün Hüquqi Bazalar (2022)** – https://climatefocus.com/wp-content/uploads/2022/06/Blueprint_07-06-2022_EN_with-BMWK-logo.pdf

**3. IC-VCM: Ev Sahibi Ölkələrin Cəlb olunması üzrə Bələdçi (2023)** – https://vcmintegrity.org/wp-content/uploads/2023/05/VCMI-decision-sheet-1.pdf

**4. Dünya Bankı: Karbon Bazarları və İqlim Siyasəti (2023)** – https://openknowledge.worldbank.org/handle/10986/39774

**5. Qana, Maddə 6 üzrə Hazırlıq Çərçivəsi** – https://cmo.epa.gov.gh/wp-content/uploads/2022/12/Ghana-Carbon-Market-Framework-For-Public-Release_15122022.pdf

**Tövsiyyə olunan ədəbiyyat:**

Qızıl Standart: Maddə 6 üzrə Hazırlıq (2023) – https://www.goldstandard.org/publications/implementing-article-6---an-overview-of-preparations

# Fəsil 5: Hökumətlər və Parlament deputatları üçün praktiki addımlar

Fəsil 4-də müzakirə olunan hüquqi, institusional və texniki hazırlıq anlayışlarını, o cümlədən qanunvericilik bazaları üçün nəticələri əsas götürərək, bu fəsildə hökumətlər və parlament deputatları tərəfindən 6-cı Maddədə müəyyən edilmiş müddəaların praktik olaraq həyata keçirilməsi üçün atılmalı addımlar təsvir edilir.

### 5.1 Hökumətin siyasətinin rolu

Hökumətlər Maddə 6 üzrə əməkdaşlığın həyata keçirilməsində strateji istiqamətin müəyyənləşdirilməsi baxımından mərkəzi rol oynayır. Buna uzunmüddətli iqlim strategiyalarına kooperativ yanaşmaların tətbiqi, institusional məsuliyyətlərin müəyyən edilməsi və NDC üzrə hədəflər, siyasətlər və beynəlxalq əməkdaşlıq məqsədləri arasında uyğunluğun təmin olunması daxildir. Maddə 6 üzrə Milli Orqanının yaradılması çox vaxt ilk addım hesab olunur. Bu orqan nazirliklər arasında əməkdaşlığı təmin edir və UNFCCC-nin təlimatlarına uyğun olaraq ITMO-ların təsdiqlənməsi, izlənməsi və hesabatlılığı proseslərini idarə edir[1].

### 5.2. Əlverişli çərçivələrin yaradılmasında parlament deputatların rolu

Parlament üzvləri yerli və regional hakimiyyət orqanları və özəl sektorun səlahiyyətlərinin artırılmasında mühüm rol oynaya bilərlər. Qanunverici orqan karbon bazarlarında iştirak imkanlarını təmin edən qanunvericilik bazasının formalaşdırılması və qəbulunda əsas rolu oynayır. Buna 6-cı Maddənin icrası ilə əlaqədar olaraq əsas vəzifələri müəyyən edən iqlim qanunvericiliyinin hazırlanması, reyestr sistemlərinin təsis olunması, eləcə də əldə edilən faydaların bölüşdürülməsi mexanizmlərinin hüquqi əsaslarla təmin edilməsi və 6-cı Maddənin daha geniş iqlim idarəçiliyi prosesinə inteqrasiyası daxildir. Parlamentin fəaliyyəti ITMO-ların təsdiqlənməsi, müvafiq düzəlişlərin edilməsi və özəl sektorun iştirakı kimi məsələlərə hüquqi aydınlıq gətirə bilər[4].

### 5.3 Yerli və regional hakimiyyət orqanları və özəl sektorla əlaqələndirmə işi

6-cı Maddə ilə bağlı layihələrin əksəriyyəti ştat, rayon və ya icma səviyyəsində həyata keçiriləcək. Buna görə də layihələrin təsdiqlənməsi prosesinin sadələşdirilməsi, məlumat keyfiyyətinin təmin edilməsi və 6-cı Maddənin yerli iqlim planlarına inteqrasiyası üçün mərkəzi və yerli orqanlar arasında səmərəli əlaqələndirmə mexanizmlərinin formalaşdırılması zəruri əhəmiyyət daşıyır. Özəl sektor iştirakçıları – layihə icraçıları, aqreqatorlar və investorlar – əlverişli hüquqi çərçivəyə, təsdiq prosedurlarının aydın olmasına, faydaların bölüşdürülməsi və razılaşdırma prosedurlarında şəffaflığa ehtiyac duyurlar. Dövlət – özəl platformalar və təlimat sənədləri bu proseslərə dəstək verə bilər[4].

### Əsas mesajlar və praktiki tövsiyələr

- Parlamentin nəzarət və təftiş səlahiyyətləri çərçivəsində 6-cı Maddə üzrə hüquqi və institusional mandata malik xüsusi orqanın yaradılması.
- 6-cı Maddənin milli iqlim qanunvericiliyinə və iqlim maliyyələşdirmə çərçivələrinə daxil edilməsi üçün qanunvericilikdən istifadə.

- Yerli və regional hakimiyyət orqanları və özəl sektorla dialoq və əlaqələndirmənin aparılması.
- Hamı üçün aydın razılaşdırma qaydaları, reyestr protokolları və faydaların bölüşdürülməsi qaydalarının qəbul edilməsi.
- Parlament deputatları yerli və regional hakimiyyət orqanları və özəl sektora müvafiq səlahiyyətlər verə bilərlər.
- Özəl sektor / yerli icma tərəfindən meşəsalma fəaliyyətlərində tərəfdaşlığın həyata keçirilməsi məqsədilə torpaqdan uzunmüddətli istifadəni təmin edən qanunvericiliyin qəbul edilməsi. Tranzaksiya xərclərinin azaldılması və Maliyyə resurslarının müvafiq layihələr ilə uyğunlaşdırılması işinin sürətləndirilməsi üçün prioritet qaydada lazımi səriştələrə malik yerli aktorların milli reyestrinin yaradılması.

**Mərhələli icra üçün yol xəritəsi**

- **Qısamüddətli** (0–1 il): 6-cı Maddə üzrə milli orqanın yaradılması, bacarıqların artırılması üzrə təlimlərin keçirilməsi və hüquqi bazanın hazırlanmasına başlanması.
- **Ortamüddətli** (1–3 il): Reyestrin tətbiqinə başlanması, razılıq və faydaların bölüşdürülməsi prosedurlarının qəbul edilməsi və ilkin ITMO əməliyyatlarının pilot qaydada həyata keçirilməsi.
- **Uzunmüddətli** (3–5+ il): 6-cı Maddənin milli iqlim siyasətinə tam inteqrasiya edilməsi, reyestrin əlaqələndirməsinin təmin edilməsi və özəl sektorun iştirakının genişləndirilməsi.

**Ölkə təcrübələrində ən yaxşı nümunələr**

- Hökumət siyasəti: Qananın Ətraf Mühit Nazirliyi siyasət və hazırlıq prosesi üzrə planlaşdırmanın əlaqələndirilməsi məqsədilə 6-cı Maddə üzrə nazirliklər arası İşçi Qrupu yaratmışdır[1].
- Qanunvericilik bazaları: İsveçrə 6-cı maddə çərçivəsində əməkdaşlıq məsələsini özünün $CO_2$ ilə əlaqəli qanunvericiliyinə inteqrasiya etmişdir ki, bu da ITMO-larla bağlı hüquqi razılıqların verilməsi və uyğunlaşdırma mexanizmlərinin tətbiqinə imkan verir[2].
- Yerli (yaxud regional) hakimiyyət orqanları və özəl sektor: Çili layihələrin razılaşdırılmasına dair təlimat sənədlərini dərc etmiş və MRV-nin planlaşdırması prosesinə regional hakimiyyət orqanlarını da cəlb etmişdir[4].
- İkitərəfli əməkdaşlıq: Yaponiya 20-dən çox tərəfdaş ölkə ilə Birgə Kreditləşdirmə Mexanizmini (JCM) işə salmışdır. Bu mexanizmdə ikitərəfli hüquqi çərçivələr üçün təkrarolunan bir model təqdim edilir[3].

**Ölkə təcrübələrinə dair ədəbiyyat siyahısı:**

1. https://cmo.epa.gov.gh/wp-content/uploads/2022/12/Ghana-Carbon-Market-Framework-For-Public-Release_15122022.pdf

2. https://a6partnership.org/partners/switzerland

3. Yaponiya Birgə Kreditləşmə Mexanizmi – https://www.jcm.go.jp/

4. Çilinin Ətraf Mühit Nazirliyi – 6-cı Maddə üzrə Layihələrin Razılaşdırılması Təlimatları https://4echile.cl/wp-content/uploads/2021/12/Overselling-Risk-English.pdf

**İstifadə olunmuş ədəbiyyat:**

1. UNFCCC 6.2-ci Maddəyə dair Təlimat və Hesabat tələbləri –
https://unfccc.int/sites/default/files/resource/Article_6.2_Reference_Manual.pdf

2. Qızıl standart – Qəbul edən ölkənin 6-cı Maddə üzrə Hazırlığı – chrome-
https://goldstandard.org/sites/default/files/implementing_article_6-an_overview_of_preparations_in_selected_countries.pdf

3. Çilinin Ətraf Mühit Nazirliyi – 6-cı Maddənin Razılaşdırılması Qaydaları
https://4echile.cl/wp-content/uploads/2021/12/Overselling-Risk-English.pdf

4. IC-VCM Əlverişli Şərtlərə dair təlimatlar – https://icvcm.org/core-carbon-principles/

**Tövsiyə olunan ədəbiyyat:**

OECD/IETA – 6-cı Maddə üzrə Hazırlıq: Ayrı-ayrı ölkə nümunələrinin araşdırılması –
https://www.oecd.org/environment/climate-change/Article-6-readiness-country-case-studies.pdf

# Fəsil 6: Təhlükəsizlik tədbirləri, bütövlük və inklüzivlik

Sərbəst, əvvəlcədən verilmiş və bilgiyə əsaslanan razılıq (FPIC) və faydaların ədalətli bölüşdürülməsi yerli icmalar tərəfindən həyata keçirilən meşə (ağac əkmə) layihələrində ən mühüm prinsiplərdəndir. Bu fəsildə, hökumətin bu prosesdə rolu və 5-ci fəsildə müzakirə edilən hüquqi, institusional və texniki hazırlıq ilə bağlı anlayışlara əsaslanaraq, hökumət və qanunverici orqanlar tərəfindən təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi istiqamətində atılmalı praktiki addımlar müəyyən edilir.

### 6.1. 6-cı Maddədə təhlükəsizlik tədbirləri nə üçün mühüm əhəmiyyət kəsb edir?

6-cı Maddədə çeviklik və maliyyələşmə imkanları təqdim edir, lakin müvafiq təhlükəsizlik tədbirləri olmadan ekoloji zərər, hüquq pozuntuları və reputasiya itkisi kimi risklər meydana çıxa bilər. Qəbul edən ölkələr təmin etməlidirlər ki, 6-cı Maddə üzrə fəaliyyətlər milli dayanıqlı inkişaf prioritetlərinə uyğun olsun və mənfi sosial və ya ekoloji nəticələr doğurmasın. Güclü təhlükəsizlik tədbirləri yerli icmalar üçün müdafiə rolunu oynayır, ədaləti artırır və bazar etimadını möhkəmləndirir.

### 6.2 Ekoloji bütövlük: Standartlar və alətlər

Ekoloji bütövlük emissiyaların azaldılmasının real olmasını və təkrar hesablanmadığını təmin edir. Əsas tədbirlər aşağıdakılardır:

- Mühafizəkar prinsiplərlə baza ssenarilərinin və əlavə testlərin tətbiqi;
- nəticələrin daimiliyinin təmin edilməsi və sızmalara müvafiq nəzarətin təşkili;
- milli sistemlərin UNFCCC təlimatları[1] və əsas karbon prinsipləri (IC-VCM)[2] ilə uyğunlaşdırılması;
- müstəqil üçüncü tərəflər tərəfindən təsdiq və yoxlamaların aparılması.

Hökumətlər həmçinin şikayətlərə baxılması mexanizmlərini təsis etməli və icradan sonra auditlərin aparılmasını təmin etməlidir.

### 6.3 Sosial müdafiə tədbirləri və faydaların bölüşdürülməsi

6-cı Maddə üzrə fəaliyyətlər həssas qruplara zərər verməməli və inkişafdan birgə faydalanmaya dəstək olmalıdır. Hökumətlər və parlamentlər aşağıdakı addımları ata bilərlər:

- hər bir layihə üçün dayanıqlı inkişafın qiymətləndirilməsi tələb edilir;
- yerli icmalar üçün sərbəst, əvvəlcədən verilmiş və bilgiyə əsaslanan razılığa (FPIC) icazə verilməsi;
- yerli icmalar üçün faydaların şəffaf şəkildə bölüşdürülməsi mexanizmlərinin təsis edilməsi;
- sosial təsirlərin və ədalət nəticələrinin milli hesabatlarla izlənməsi;
- gender, səhiyyə və rifah göstəricilərinin daxil edilməsi ilə hesabatlılığın və inkişaf dəyərinin artırılması;

- icmaların potensialının və məlumatlılığının artırılması, bununla da 6-cı Maddə üzrə fəaliyyətlərdə səmərəli iştirakın təmin edilməsi və Dayanıqlı İnkişaf Məqsədlərinin birgə faydalarının dərk edilməsi.

Məsələn, Keniya layihənin gətirdiyi faydanın ən azı 25%-nin yerli icmalara ayrılmasını tələb edir. Sakit okean hövzəsi ölkələri – Fici və Papua-Yeni Qvineya – iqlim layihələrinin tərtib olunmasına və REDD+ çərçivəsində hazırlıq strategiyalarına torpaq sahiblərinin iştirakı və faydaların bölüşdürülməsi müddəalarını daxil etmişdir. Fici REDD+ ER P çərçivəsində "Faydaların bölüşdürülməsi Planı"nı rəsmiləşdirərək karbondan gələn gəlirlərin təqribən 85%-ni torpaq sahibi iTaukei icmalarına şəffaf və iştirakçı mexanizmlər əsasında ayırır.[6] Papua-Yeni Qvineyanın "April Salomei REDD+ layihəsi"ndə gəlirin təxminən 60%-i birbaşa yerli torpaq sahiblərinə yönləndirilir.[8]

### 6.4 İnklüziv idarəetmə və maraqlı tərəflərlə iş

Məqsədyönlü iştirak legitimliyi gücləndirir, riskləri erkən mərhələdə üzə çıxarır və innovasiyanı təşviq edir. 6-cı Maddə üzrə idarəçilik aşağıdakıları təmin etməlidir:

- layihə, milli və beynəlxalq səviyyələrdə maraqlı tərəflərin iştirakının institusionallaşdırılması;
- layihənin tərtib olunması zamanı məlumatlara çıxış və məsləhətləşmə imkanlarının yaradılması;
- rəqəmsal reyestrlər vasitəsilə üçüncü tərəflərə təqdimat, rəy və şikayət imkanlarının verilməsi;
- vətəndaş cəmiyyəti, yerli icmalar və qadın təşkilatlarının nümayəndələrinin nəzarət strukturlarında iştirakı.

### 6.5 Təhlükəsizlik tədbirlərinin yerinə yetirilməsi üçün mərhələli yox xəritəsi

**Qısa müddətli (0–6 ay):**

- Milli sistemlərin UNFCCC və IC-VCM tələbləri ilə müqayisəli qiymətləndirilməsi;
- 6-cı Maddə üzrə layihə təşəbbüskarları üçün müvəqqəti təhlükəsizlik prinsiplərinin hazırlanması;
- Layihələrin icazə prosedurlarına təhlükəsizliklə bağlı meyarların daxil edilməsi;
- Bütövlük və inklüzivliklə bağlı risklərin və gözləntilərin müəyyən edilməsi üçün maraqlı tərəflərlə dialoqların təşkili.

**Orta müddətli (6–18 ay):**

- FPIC[5] və faydaların bölüşdürülməsi də daxil olmaqla təhlükəsizlik tələblərini özündə təsbit edən normativ aktların qəbul edilməsi və ya yenilənməsi;
- sosial, ekoloji və gender məsələlərində nəticələr əldə etmək üçün monitorinq göstəricilərinin tətbiqi;
- aidiyyəti orqanların və reyestr əməkdaşlarının təhlükəsizlik tələblərinə əməl olunması və şikayətlərin həlli üzrə təlimləndirilməsi;

- yerli icmalar və qeyri-dövlət subyektlərinə (aktorlarına) münasibətdə layihənin nəticələrini (təsirlərini) izləmək məqsədilə rəqəmsal hesabat kanallarının pilot əsaslarla işə salınması.

**Uzun müddətli (18+ ay):**

- təhlükəsizlik tədbirlərinin iqlim idarəçiliyi üzrə ölkənin hüquqi bazasına və karbon bazarını tənzimləyən qaydalara institusional olaraq inteqrasiya olunması;
- 6-cı Maddənin tətbiqindən irəli gələn təsirlərin müstəqil (üçüncü tərəflər) yoxlamalar və ya vətəndaşlardan ibarət müzakirələr vasitəsilə qiymətləndirilməsi;
- Rəylərin alınması və siyasətə dair dialoqların aparılması üçün daimi və çoxlu maraqlı tərəfdaşların iştirakı ilə forumların yaradılması;
- milli təhlükəsizlik tədbirlərinin və hesabatların Dayanıqlı İnkişaf Məqsədləri, Paris Sazişi və könüllü karbon bazarı çərçivələri ilə uyğunlaşdırılması.

**Əsas mesajlar və praktiki tövsiyələr**

- Təhlükəsizlik tədbirləri seçimə bağlı deyil – onlar etibarın yaradılması və uzunmüddətli iştirak üçün zəruri əhəmiyyət kəsb edir.
- Hökumətlər 6-cı Maddədəki ekoloji və sosial tələbləri qanunvericilikdə təsbit etməlidirlər.
- Layihələr ev sahibi olan icmalara real faydalar gətirməli, milli prioritetlərlə uyğunlaşdırılmalıdır.
- Maraqlı tərəflərin iştirakı layihənin tərtibatında və institusional bazada təmin edilməlidir.
- FPIC və faydaların ədalətli bölüşdürülməsi yerli icmaların ağac əkmə (meşə salınması) layihələri üçün əsas şərtlərdir.
- Yerli təşkilatlar üçün təklif olunan milli reyestr legitim icma nümayəndələrinin müəyyənləşdirilməsi və FPIC-in yoxlanılması baxımından vacib əhəmiyyət kəsb edir. Hökumətlər layihə təşəbbüskarlarına qeydiyyatdan keçmiş yerli subyektlərlə məsləhətləşmə aparmaq və təhlükəsizlik tədbirlərinə dair hesabatlarda hesabatlıq və inklüzivliyin artırılması məqsədilə reyestr identifikasiya nömrələrinə istinad etmək səlahiyyəti verməlidir.

**Praktiki tövsiyələr:**

- icazələrin verilməsi prosedurlarına təhlükəsizlik tədbirlərinin və DİM-in ortaq faydalarına dair göstəricilərin daxil edilməsi;
- bütün layihələr üçün FPIC, maraqlı tərəflərin xəritələşdirilməsi və faydaların bölüşdürülməsi planlarının tələb edilməsi;
- milli təhlükəsizlik tələblərinin IC-VCM, Qızıl Standart və ya VCMI çərçivələri ilə uyğunlaşdırılması;
- reyestrlərdə şikayətlərin baxılması və üçüncü tərəflərin töhfə verə bilməsi rəsmi kanalların yaradılması;

- maraqlı tərəflərin və yerli icmaların DİM ilə bağlı ortaq faydaları düzgün anlaya bilməsi, eləcə də 6-cı Maddənin icrasına dəstək göstərməsi üçün müvafiq məlumatlandırma və təlim proqramları həyata keçirməklə bacarıqlarının gücləndirilməsi.

**İstifadə olunmuş ədəbiyyat**

1. UNFCCC. Qərar 2/CMA.3, Maddə 6. Təhlükəsizlik tədbirlərinə dair təlimat (2021) https://unfccc.int/documents/460950
2. IC-VCM. Əsas karbon prinsipləri və qiymətləndirmə çərçivəsi (2023). https://icvcm.org/core-carbon-principles
3. Qızıl Standart. Təhlükəsizlik tədbirlərinə dair prinsiplər və tələblər https://globalgoals.goldstandard.org/103-par-safeguarding-principles-requirements/
4. VCMI. İddialar üzrə davranış kodeksi https://vcmintegrity.org/wp-content/uploads/2023/06/VCMI-Claims-Code-of-Practice.pdf
5. UN-REDD. Sərbəst, Əvvəlcədən və məlumatlı şəkildə razılığın verilməsi təlimatları (2013) https://www.un-redd.org/document-library/guidelines-free-prior-and-informed-consent
6. https://www.worldwildlife.org/publications/environmental-and-social-safeguards-framework
7. https://redd.unfccc.int/files/d4_final_report_sis_fiji_final_23821.pdf
8. https://www.un-redd.org/post/papua-new-guineas-forest-conservation-drive-triggers-landmark-results-based-payment

GLOBE
The Global Legislators Organisation

# Fəsil 7: 6-cı Maddənin ilk icraçılarının təcrübələri və əldə olunmuş dərslər

Bu fəsildə 6-cı Maddə üzrə hazırlıq və icra mərhələsini keçən ilk ölkələrin təcrübələri işıqlandırılır. Buraya həm ilk ölkələr, həm də 2023–2024-cü illərdə həyata keçirilmiş yeni pilot nümunələr daxildir. Aşağıda tipoloji cədvəlində hazırlıqla bağlı yanaşmaları müqayisə olunur, daha sonra ümumi dərslər və mərhələli icra xəritəsi verilir.

Cədvəl 1 – Ölkələrin Hazırlıq Mərhələsinə görə tipologiyası

| Ölkə | İdarəetmə modeli | ITMO növü | Reyestr hazır olub-olmaması | Təhlükəsizlik tədbirlərinin inteqrasiya olunub-olunmaması |
|---|---|---|---|---|
| Qana | EPA-nın rəhbərliyi altında milli orqan | 6.2 | Qismən | Bəli |
| Yaponiya | JCM ikitərəfli şəbəkə | 6.2 | Bəli | Qismən |
| Peru | REDD+ əlaqələndirilmiş milli sistem | 6.2 (6.4-ə keçid baş tutmayıb) | Bəli | Tam |
| Kolumbiya | Hüquqi islahatlardan irəli gəlmişdir | 6.2 (6.4-ə keçid baş verməyib) | Icrada | Bəli |
| İndoneziya | Prezident Fərmanı | 6.2 + 6.4 | Bəli | Başlama mərhələsində |

**Kəsişən dərslər**

- İlk tətbiq edən ölkələrin təcrübəsi göstərir ki, uğur qaydaların aydın olmasından və tərəfdaşlar arasında etibardan asılıdır.
- "Hamı üçün uyğun tək model" mövcud deyil, lakin institusional prosesin mütləq aydın olmalıdır.
- İlk tətbiq olunan pilot layihələr sübut edir ki, 6-cı Maddənin uğurlu olması hüquqi səlahiyyətlərin olmasından və qurumlararası koordinasiya işinin düzgün təşkilindən asılıdır.
- İzləmə sistemlərinin şəffaflığı və faydaların bölüşdürülməsi mexanizmləri alıcıların etimadını artırır.
- Texniki və donor tərəfdaşlarla əməkdaşlıq icra prosesini daha da sürətləndirir və etibar yaradır.

**Mərhələli yol xəritəsi: Alınmış dərslərin milli kontekstə tətbiqi**

**Qısa müddətli (0–6 ay):**

- Prioritet sektorların və pilot tətbiq üçün layihə növlərinin müəyyənləşdirilməsi.
- İdarəetmə variantlarının Qana[1], Peru[5] və İndoneziya[6] nümunələri ilə müqayisə edilməsi.
- Hüquqi çərçivə, MRV (ölçmə, hesabatlılıq və yoxlama) və reyestrin qurulması üçün hazırlıq işlərinin əlaqələndirilməsi məqsədilə daxili işçi qrupunun yaradılması.

**Orta müddətli (6–18 ay):**

- Səlahiyyət meyarları və təhlükəsizlik siyasətlərinin layihəsinin hazırlanması və müzakirəyə çıxarılması.
- Rəqəmsal reyestr infrastrukturunun və məlumat mübadiləsi protokollarının hazırlanması və ya uyğunlaşdırılması.
- Peru, İsveçrənin təcrübələri və ya JCM əsasında ikitərəfli dialoqlara başlanması.
- Dünya Bankının "Climate Warehouse" təşəbbüsü reyestrin inkişafı üçün infrastruktur modellərini və qarşılıqlı işləmə təcrübələrini təqdim edir[4].

**Uzun müddətli (18+ ay):**

- Kreditlərin verilməsi və hesabat dövrlərinin işə salınması.
- 6-cı Maddə üzrə uzunmüddətli koordinasiya məqsədilə institusional mərkəzin yaradılması.
- Öyrənilmiş dərslər və təcrübə nümunələrinin UNFCCC[7] və regional platformalar vasitəsilə paylaşılması.

**Əsas mesajlar və praktiki tövsiyələr**

**Əsas mesajlar:**

- Müxtəlif keyslərin araşdırılması erkən planlaşdırmanın, siyasi iradənin və davamlı koordinasiya işinin vacibliyini nümayiş etdirir.
- Ölkələr ümumi şablonlardan deyil, həmkarların təcrübəsi əsasında fərdiləşdirilmiş (uyğunlaşdırılmış) hazırlıq strategiyalarından yararlanır.
- Rəqəmsal infrastruktur və aydın hüquqi mexanizmlərin mövcudluğu icra prosesini sürətləndirir və etimadı artırır.
- Təhlükəsizlik tədbirləri və faydaların bölüşdürülməsi mexanizmləri ilkin mərhələdə əldə edilmiş razılaşmalarda getdikcə daha çox öz əksini tapır.
- Kenya və Seneqal kimi ölkələr, GGGI tərəfindən hazırlıq mərhələsinə aid təşəbbüslərə dəstəyin göstərilməsi ilə, 6-cı Maddədə iştirakla bağlı institusional bazanı pilot əsasda tətbiq etmişdir[3].
- İlk tətbiq edən ölkələrin təcrübəsi göstərir ki, 6-cı Maddənin uğurlu icrası qaydaların aydın olmasından və icra tərəfdaşlarının etibarlı olmasından asılıdır.
- Ölkələr yalnız reyestr modellərini (məsələn, Peruya məxsus SINIA modeli) öyrənməklə kifayətlənməməli, onları yerli icraçı müəssisələrin, məsələn, QHT-lər, kooperativlər və yerli icmaya aid təşkilatların dinamik ictimai kataloqlarına çevirməlidirlər. Bu müəssisələr çox vaxt görünməz qalsa da, meşəsalma və icma əsaslı tədbirlərdə həlledici rol oynayırlar. Asan əlçatan reyestrlər alıcıların etibarlı, əvvəlcədən təsdiqlənmiş tərəfdaşlarla əlaqə yaratmasına imkan verir, beləliklə riskləri azaldır və nəticələrin daha geniş miqyasda tətbiqini sürətləndirir.

**Praktiki tövsiyələr:**

- Dərc olunmuş ikitərəfli sazişlərdən (məsələn, Qana[1] və İsveçrə) hüquqi istinad kimi istifadə edilməsi.
- Reyestr, hüquqi məsələlər və ya bacarıqların sahəsində dəstəyin göstərilməsi üçün donorlar və çoxtərəfli tərəfdaşlarla iş.
- Milli səviyyədə tətbiq məqsədilə qərar vermək üçün JCM[2] və IC-VCM pilot ölkələrinin təcrübəsindən faydalanma.
- Öyrənilmiş dərslərin regional səviyyədə sənədləşdirilməsi və paylaşılması, bununla da kollektiv təcrübə və mövqelərin formalaşdırılması.

**İstifadə olunmuş ədəbiyyat**


1. https://cmo.epa.gov.gh/wp-content/uploads/2024/02/Article-6-Annual-Progress-Report-2023_final.pdf
2. https://www.jcm.go.jp
3. https://gggi.org/article6-readiness
4. https://openknowledge.worldbank.org/entities/publication/92ff46b2-650d-4395-b1d4-9c51dcdc6448
5. https://www.un-redd.org/partner-countries/latin-america-and-caribbean/peru
6. https://jdih.maritim.go.id/cfind/source/files/perpres/2021/perpres-nomor-98-tahun-2021-english-version.pdf
7. https://unfccc.int/process-and-meetings/the-paris-agreement/article-6/article-6-decisions-and-documentation

# Fəsil 8: 6-cı Maddə üzrə tez-tez Verilən Suallar

7-ci fəsildə nəzərdən keçirilmiş praktik addımlar və ölkələrin ilk təcrübələrinə əsaslanaraq, bu fəsildə hökumət strukturları, parlament üzvləri və maraqlı tərəflərin 6-cı Maddə ilə bağlı tez-tez verdiyi suallar toplanmışdır. Burada hüquqi hazırlıqdan tutmuş könüllü bazarlarla qarşılıqlı əlaqələrədək aydın və strukturlaşdırılmış cavablar təqdim olunur ki, bu da qərarların bilgi əsasında qəbulunu və bacarıqların artırılmasını təmin edir.

**Mövzu üzrə suallar:**

**A. İqlim hədəfləri və ambisiyalar**

1. **6-cı Maddə iqlim hədəflərimizə necə təsir edir?**
   Bu, xərclərin azaldılması baxımından səmərəlilik yaradır, lakin milli fəaliyyətlərin azalması riskini də daşıyır.
2. **Kreditləri sata bilərikmi və yenə də NDC-ni (Milli Müəyyən Edilmiş Töhfəni) yerinə yetirə bilərikmi?**
   Yalnız o halda ki, daxili emissiya azaldıcı tədbirlər kifayət qədər olsun.
3. **ITMO-ların (Beynəlxalq səviyyədə ötürülmüş Emissiyaların azaldılmasının Nəticələri) həddindən artıq satılmasını necə idarə edə bilərik?**
   Mühafizəkar qaydada limitlər müəyyən etməklə və gələcək NDC ehtiyaclarını qorumaqla.
4. **Birinci Ötürmə İli (FTY) nədir?**
   Bu, uyğunlaşdırma öhdəliklərinin və izləmənin başladığını göstərən tarixdir.

**B. Maliyyə və gəlirlər**

1. **Bu gəlir gətirəcək?**
   *Bəli, əgər layihələr yüksək keyfiyyətdə və razılaşdırılmış olarsa.*
2. **6-cı Maddə adaptasiyaya dəstək ola bilər?**
   *Bəli, mənfəətdəki payın və milli gəlirlərin istifadəsi ilə.*

**C. Hüquqi və institusional sxem**

1. **Hansı hüquqi dəyişikliklərə ehtiyac var?**
   *Tələb olunan əsas hüquqi dəyişikliklər aşağıdakılardır: İcazə vermə qaydaları, reyestrə çıxış və MRV (ölçmə, hesabatlılıq və yoxlama) qanunları.*
2. **İTMO-lardan istifadəni və transferləri kim təsdiqləyir?**
   *Rəsmi icazə prosedurları əsasında qəbul edən ölkələr.*
3. **Alıcı düzəliş edə bilmədiyi təqdirdə nə baş verir?**
   *Bu ikiqat hesabalama riski yaradır və müqavilə əsasında təminat verilməlidir.*
4. **Alıcı Müvafiq Uyğunlaşdırma aparmadığı təqdirdə hüquqi məsuliyyəti necə təmin edə bilərik?**

   *Məcburi hüquqi qüvvəsi olan müqavilələr, aydın səlahiyyət şərtləri və 6-cı Maddədə müəyyən edilmiş qaydalara dair şəffaf hesabat öhdəlikləri vasitəsilə.*

5. **Qəbul edən ölkənin icazə verməsi nədir?**
*Bu, ITMO-ların (Beynəlxalq səviyyədə ötürülmüş Emissiya Azaldılmalarının Nəticələri) yaradılması və NDC-lər (Milli Müəyyən Edilmiş Töhfələr) və ya digər məqsədlər üçün istifadəyə verilən rəsmi dövlət icazəsidir.*

**6. Müvafiq Düzəliş (CA) nədir?**
*İki ölkə tərəfindən emissiya azaldılmalarının ikili hesablanmasının qarşısını almaq məqsədilə aparılan mühasibat uçotuna düzəliş.*

**7. İştirak etmək üçün hansı hüquqi dəyişikliklər tələb olunur?**
*ITMO-ların təsdiqlənməsi, uçotu, reyestrlər, faydaların bölüşdürülməsi və MRV(ölçmə, hesabatlılıq və yoxlama) haqqında qanunlar.*

**8. Yerli və ya regional hakimiyyət orqanları (məsələn, ştat hökumətləri) 6-cı Maddədə iştirak edə bilərmi – xüsusilə böyük federativ ölkələrdə?**
*Bəli, lakin yalnız milli hökumətin təsdiqi vasitəsilə; federativ sistemlərdə vəzifələr, koordinasiya və hüquqi səlahiyyətlər aydınlaşdırılmalıdır.*

9. **6-cı Maddə üzrə müəyyən edilmiş mexanizmlər könüllü karbon bazarı (VCM) ilə hansı qarşılıqlı əlaqəyə malikdir?**
*Əgər razılaşdırılıb və müvafiq düzəliş aparılıbsa, VCM kreditləri ITMO-ya çevrilə bilər; əks halda fərqli məqsədlərə xidmət edir və ikili iddialardan yayınmalıdır.*

**D. Layihə növbəti və həcmi**

**1. 6-cı Maddə üzrə kreditlər yalnız layihə əsaslı olmalıdır?**
*Xeyr, bura proqramlar, sektorlar və ya siyasətlər də daxil ola bilər.*

**2. 6-cı Maddə bütün sektorlara şamil olunur?**
*Bəli, o cümlədən enerji, meşəçilik və siyasət alətlərinə.*

**E. Bazar bağlantıları və VCM**

**1. 6-cı Maddə və VCM (Könüllü karbon bazarları) arasında qarşılıqlı əlaqə necə təmin olunur?**
*VCM razılaşdırıldığı və uyğunlaşdırıldığı təqdirdə VCM kreditləri İTMO-lara çevrilə bilər.*

**2. 6-cı Maddə üzrə kreditlər CORSİA-da istifadə oluna bilər?**
*Bəli, əgər qəbul edən ölkə icazə verərsə və müvafiq olaraq düzəlişlər edərsə.*

**3. Könüllü kreditlər İTMO-lar kimi istifadə oluna bilər?**
*Bəli, əgər qəbul edən ölkə tərəfindən icazə verilərsə və ya düzəliş edilərsə.*

**F. Yerli və ya regional orqanlar və özəl aktorlar**

**1. Yerli və ya regional müəssisələr iştirak edə bilər?**
*Yalnız mərkəzi hökumətlərin razılığı ilə.*

**2.Əgər layihə yarı yolda uğursuzluqla nəticələnərsə, nə baş verir?**
Öhdəliklər müqavilədən və risklərin paylaşılmasından asılıdır.

**G. Reyestrlər və MRV (ölçmə, hesabatlıq və yoxlama)**

**1. Hansı MRV və reyestrlər qəbul olunur?**
*UNFCCC ilə uyğunlaşdırılmış milli və ya müstəqil sistemlər.*

## H. Təhlükəsizlik tədbirləri və bərabərlik

**1. Biz faydaların icmalara çatdırılmasını necə təmin edirik?**
*Milli səviyyədə faydaların bölüşdürülməsi və sosial təhlükəsizlik tədbirləri vasitəsilə.*

**2. 6.4-cü maddə çərçivəsində təhlükəsizlik tədbirləri (təminatları) nəzərdə tutulur?**
*Bəli, o cümlədən DİM-lərin hesabatı və şikayətlərin verilməsi mexanizmləri.*

## I. İcra və hazırlıq

**1. 6-cı Maddə üzrə çərçivənin təşkili nə qədər vaxt çəkir?**
*Tam hüquqi hazırlıq, reyestrin hazırlanması və MRV-nin hazırlanması üçün 12–24 ay.*

**2. Qəbul edən ölkənin iştirakı üçün nə tələb olunur?**
*Aydın razılaşdırma (icazə) prosesi, insititusional bacarıqlar və NDC-lərin uyğunlaşdırılması.*

**3. Tam icradan əvvəl pilot qaydada icra edə bilərik?**
*Bəli, bir çox ölkələr sistemlərin sınaqdan keçirilməsi və təcrübə əldə etmək məqsədilə pilot layihələr həyata keçirirlər.*

## J. İstifadə və iddialar

**1. Alıcılar hansı növ iddialar irəli sürə bilərlər?**
*İcazədən asılıdır: “töhfə” yaxud “kompensasiya” yaxud “emissiyaların azaldılmasının naticələri.”*

**2. Alıcı Müvafiq Düzəliş etməzsə nə baş verir?**
*İkili hesablama riski yaranır və bu, müqavilələr və hesabatlılıq vasitəsilə idarə olunmalıdır.*

**3. ITMO-lar dərhal istifadə edilməzsə nə baş verir?**
*Onlar saxlanıla bilər, lakin istifadəsi şəffaf şəkildə hesabatda göstərilməlidir.*

**4. Özəl sektor aktorları ITMO-larla ticarət edə bilərmi?**
*Bəli, lakin qəbul edən ölkənin nəzarəti və milli qaydalar çərçivəsində.*

**5. Layihə yarımçıq dayandırılarsa nə baş verir?**
*Müqavilədən asılıdır – bəzi müqavilələrdə ehtiyat fondları, sığorta və ya risk bölgüsü müddəaları yer alır.*

## K. Risklər və bütövlük

**1. 6-cı Maddə əməliyyatlarında əsas risklər hansılardır?**
*İkili hesablama, siyasi dəyişiklik, icra uğursuzluğu, reputasiya riskləri.*

**2. Yüksək ekoloji bütövlük necə təmin olunur?**
*Möhkəm baza məlumatları, əlavələrin edilməsi imkanları, mühafizəkar hesablamalar və təminatlar vasitəsilə.*

**3. Layihəyə sonradan etiraz edilərsə nə baş verir?**
*Qaydalardan asılı olaraq kreditlər ləğv edilə və ya qeyd edilə bilər; mübahisələrin həlli mexanizmi əsasdır.*

## L. Sadə Suallar, Sadə Cavablar (6-cı Maddə ilə ilk dəfə işləyən qanunverici orqanlar üçün)

1. **Bu Maddə ağacların əkilməsi haqqındadır?**
   *Bəzən — lakin daha geniş anlam daşıyır. Bu ölkələrin birlikdə işləyərək emissiyaları azaltması haqqındadır.*
2. **Ölkələr bundan pul qazana bilərmi?**
   *Bəli, qaydalara əməl etdiyi və kreditləri məsuliyyətlə satdığı təqdirdə.*
3. **Bu, bizim öz iqlim hədəflərimizə çatmağımızın qarşısını alacaqmı?**
   *Xeyr, əgər diqqətlə planlaşdırsaq və emissiyaların yetəri qədər azaldılmasını özümüzdə saxlasaq.*
4. **Bu yalnız özəl şirkətlərə buraxa bilərikmi?**
   *Xeyr — bütün transferləri hökumət təsdiqləməli və izləməlidir..*
5. **Bu, köhnə CDM sisteminə bənzəyirmi?**
   *Bənzərdir, lakin daha sərtdir və saxtakarlığın qarşısını almaq üçün özündə yoxlama mexanizmlərini ehtiva edir.*
6. **Bu kreditlərdən öz ölkəmizdə istifadə edə bilərikmi?**
   *Bəli, əgər onları xaricə satmırıqsa və düzgün hesabat aparırıqsa.*
7. **Bunun üçün yeni qanunlar qəbul etməliyikmi?**
   *Çox güman ki, bəli — ən azı ticarətə razılıq vermək və emissiyaları izləmək üçün.*
8. **Heç nə etməsək nə baş verəcək?**
   *Maliyyə imkanlarını əldən verərik və digər ölkələrdən geri qalarıq.*

## M. İştirak və Uyğunluq

1. **İTMO dedikdə nə başa düşülür?**
   *$CO_2$ ekvivalenti ($tCO_2e$) ilə ifadə olunan emissiya azaldılmalarının nəticəsi, qəbul edən ölkə tərəfindən təsdiqlənmiş, beynəlxalq səviyyədə ötürülmüş və müvafiq düzəlişlər edilmiş şəkildə.*
2. **6-cı Maddədəki bütün fəaliyyətlər layihə əsaslıdırmı?**
   *Xeyr, onlar layihələri, proqramları, siyasət alətlərini və ya sektoral tədbirləri əhatə edə bilər.*
3. **Yerli və ya regional orqanlar (məsələn ştat hökumətləri) iştirak edə bilər?**
   *Yalnız mərkəzi hökumətin razılığı ilə.*
4. **Gəlir əldə etməklə, eləcə də gələcək NDC ambisiyalarını qorumaqla, ITMO-ları lazım olandan artıq satmaqdan necə çəkinməliyik?**
   *Uzunmüddətli emissiya azaltma ehtiyaclarını modelləşdirərək və lazım olan həddən kənara çıxmamaq üçün müəyyən edilmiş limitləri qorumaqla.*

## N. Texniki infrastruktur

1. **Hansı reyestrlər və MRV sistemləri qəbul olunur?**
   *6.2-ci Maddə üzrə BMTİİKK-yə uyğun milli və ya müstəqil sistemlər; 6.4-cü Maddə üzrə isə mərkəzləşdirilmiş reyestr.*
2. **İlk Transfer İli (FTY) nədir?**
   *ITMO-nun ilk dəfə transfer edildiyi və ya istifadə olunduğu il ( Müvafiq düzəlişlərin edilməsi öhdəliklərini işə salmaqla).*

## O. Dayanıqlı İnkişaf və İcma Təsirlər

1. **Faydaların yerli icmalara çatması necə təmin olunur?**
   *Faydaların milli səviyyədə bölüşdürülməsi çərçivələri və sosial təminatların inteqrasiyası vasitəsilə.*
2. **6-cı Maddə dayanıqlı inkişafı necə təşviq edə bilər?**
   *Layihələrin DİM göstəriciləri ilə uyğunlaşdırılması və əlavə faydalara dair hesabatların məcburi təqdim edilməsi yolu ilə.*
3. **6-cı Maddə adaptasiya fəaliyyətlərinin maliyyələşdirilməsini dəstəkləyə bilərmi?**
   *Bəli — 6.4-cü Maddə çərçivəsində gəlirlərdən payın ayrılması və ya hökumət tərəfindən yönəldilən ITMO-lardan gəlirlər vasitəsilə.*

### 6-cı Maddə üzrə Parlament deputatları üçün Növbəti Addımlar

- **Düzgün məlumatlanma** – Müvafiq nazirlikdən və ya Milli İqlim Orqanından qısa, qeyri-texniki məlumatların tələb olunması.
- **Milli Strategiyanın hazırlanmasını tələb edin** –Hökumətinizdən 6-cı Maddə üzrə hüquqi, institusional və texniki aspektləri əhatə edən yol xəritəsini dərc etməyi tələb edin.
- **Hüquqi boşluqları yoxlayın** – Təsdiqləmə (icazə vermə), karbon hüquqları, reyestrlər və faydaların bölüşdürülməsi üzrə milli qanunların nəzərdən keçirilməsini dəstəkləyin.
- **Nəzarəti təmin edin** – Parlamentdə 6-cı Maddə üzrə icazələr, gəlirlər və icma təminatlarına dair dinləmələrin keçirilməsini və Parlamentə hesabat təqdim edilməsini tələb edin.
- **Faydaların bölüşdürülməsini müdafiə edin** – Kredit satışından əldə olunan gəlirlərin həssas və ön nöqtələrdə olan icmalara yönəldilməsini təşviq edin.
- **Bacarıqların artırılmasını dəstəkləyin** – Yerli hökumətlər, auditorlar və dövlət qulluqçuları üçün 6-cı Maddədə təsbit olunmuş qaydalara dair təlimlərin keçirilməsini təşviq edin.
- **Şəffaflıq tələb edin** – ITMO-lara dair razılaşmaların, qəbul edən ölkənin icazələrinin və reyestr məlumatlarının ictimaiyyət üçün açıq dərc olunmasını dəstəkləyin.
- **Beynəlxalq səviyyədə iştirakçılıq** – GLOBE və digər tərəfdaşların tədbirlərində iştirak edin, “*Parliamentarians@COP*” bülletenlərinə abunə olun və digər ölkələrin təcrübəsindən öyrənin.

### Əsas mesajlar

- Etibarlı yerli tərəfdaşları necə üzə çıxarmalı? – hazırda bu, alıcıların əsas sualıdır.

Cavab – sadələşdirilmiş qeydiyyat prosesi əsasında dövlət tərəfindən idarə olunan və təşkilatların ictimaiyyətə açıq reyestri vasitəsilə. Bu reyestr tərəfdaşlıq üçün birbaşa maneələri aradan qaldırır, şəffaflığı təmin edir və meşəsalma layihələrinin icraçılarına (xüsusilə də yerli icmalar və QHT-lərə) nəzərən özəl investorlar və platformalar üçün kompleks ekspertiza yükünü azaldır. Reyestr mütəmadi olaraq yenilənməli və qeydiyyatdan keçmiş aktorların fəaliyyətini qiymətləndirmək məqsədilə yerli əhalinin rəyini öyrənməlidir.

**Tövsiyə olunan ədəbiyyat**

- https://unfccc.int/documents/460950
- https://unfccc.int/documents/460951
- https://www.goldstandard.org/governments/article-6-resources
- https://www.c2es.org/document/understanding-article-6-of-the-paris-agreement
- https://unfccc.int/file/432531/download?token=15HNkg7W
- https://unfccc.int/sites/default/files/resource/Article_6.2_Reference_Manual.pdf

# Fəsil 9: Qarşıdakı Yol – 2025–2030-cu illər üçün Əsas Fəaliyyətlər

8-ci fəsildəki ümumi verilən suallar və icra ilə bağlı çağırışlara əsaslanaraq, bu fəsildə hökumətlər, parlament üzvləri və əsas maraqlı tərəflər üçün yol xəritəsi təqdim edilir. 9-cu fəsildə 2025–2030-cu illər üzrə prioritet fəaliyyətlər müəyyənləşdirilir ki, bu da 6-cı Maddənin yüksək dəqiqliklə icrasını təmin etməklə yanaşı, milli iqlim hədəfləri və davamlı inkişaf məqsədləri ilə də uyğunluq təşkil edir.

**1. Gələcəyə baxışın müəyyənləşdirilməsi**

- 6-cı Maddənin icrasının milli “xalis sıfır” hədəfləri ilə uyğunlaşdırılması.
- Nazirliklər, tənzimləyici orqanlar və yerli (regional) hakimiyyət orqanlar üçün aydın rolların müəyyən edilməsi.
- Karbon bazarlarının uzunmüddətli iqlim və inkişaf planlaşdırmasına daxil edilməsi.

**2. Siyasət və hüquqi islahatlar**

- İTMO-lara (Beynəlxalq səviyyədə ötürülə bilən Azaldılma Vəsaitləri) icazələrin verilməsi, ötürülməsi və izlənməsi üçün milli çərçivələrin qəbul edilməsi.
- Ətraf mühitin bütövlüyü və insan hüquqları üçün təhlükəsizlik mexanizmlərinin tətbiq edilməsi.
- Daxili qaydaların BMTİÇÇ (UNFCCC) təlimatları və regional protokollarla uyğunlaşdırılması.

**3. Bazar infrastrukturu**

- Milli reyestrlərin işə salınması və onların 6.2 və 6.4-cü Maddələr üzrə reyestrlərlə əlaqələndirilməsi.
- Qarşılıqlı əlaqədə fəaliyyət göstərən MRV (ölçmə, hesabatlılıq, yoxlama), hesabat və izləmə sistemlərinin hazırlanması.
- Müvafiq düzəlişlər və əməliyyatlarla bağlı açıqlamalarda şəffaflığın təmin edilməsi.

**4. Hazırlıq və bacarıqların artırılması**

- Hökumət, özəl sektor və yoxlayıcı orqanlarda texniki heyətin təlimləndirilməsi.
- Yerli hökumətlər və yerli icmaların bazar çərçivələrinə cəlbi.
- İlk iştirakçılarla (məsələn, Qana, İsveçrə, Sinqapur) birgə öyrənmə imkanlarının təmin edilməsi.

**5. Maliyyə vəsaitlərinin və özəl sektor tərəfindən fəaliyyətlərin səfərbər olunması**

- 6-cı Maddə ilə uyğunlaşdırılmış emissiya azaldıcı layihələr üçün qarışıq maliyyələşmənin cəlbi.
- Karbon gəliri çərçivələri vasitəsilə risklərin minimuma endirilməsi.
- NDC-lərin gücləndirilməsində özəl sektorun töhfələrinin qəbul edilməsi.

**6. 6-cı Maddə ilə Könüllü Karbon Bazarı arasında Körpü**

- 6.2, 6.4 və digər uyğunluq vahidlərinə (məsələn, CORSIA) keçidə könüllü kreditlərin ayrılması üçün yolların müəyyənləşdirilməsi.
- İkiqat iddia qaydalarının və müvafiq düzəlişlərin könüllü istifadəsinin aydınlaşdırılması.
- Yüksək dürüstlüklü etiketlərdən və reyestrlərdən (məsələn, ICVCM ilə uyğunlaşdırımış) istifadənin təşviq edilməsi.

**7. Regional Əməkdaşlıq və Cənub-Cənub Əməkdaşlığı**

- Regional dialoq və birgə metodologiyaların başladılması.
- Hüquqi şablonların, reyestr tərtibatların və potensial alətlərin paylaşılması.
- Birgə emissiya azaltma fəaliyyətlərinin və İTMO təkliflərinin hazırlanması.

**Qısa müddətli (2025–2026): Təməl və erkən hərəkətə gətirmə**

- İTMO-lara icazənin verilməsi və təsdiqlənməsinə dair milli qanunvericiliyin qəbul edilməsi.
- Milli karbon reyestrlərinin hazırlanması və sınaqdan keçirilməsi.
- Əsas nazirliklərdən 6-cı Maddə üzrə işçi qrupların yaradılması.
- Hökumət heyətini 6-cı Maddənin prosedurları və təminat mexanizmləri üzrə təlimləndirilməsi.
- Müvafiq düzəlişlərə dair daxili siyasətin aydınlaşdırılması.
- 6-cı Maddənin NDC hədəfləri ilə uyğunluğunun qiymətləndirilməsi məqsədilə milli İEYQ (istilik effekti yaradan qazlar) inventarizasiya sistemlərinin yaradılması və ya möhkəmləndirilməsi.

**Orta müddətli (2026–2028): Bazarın aktivləşdirilməsi və inteqrasiyası**

- BMTİÇÇ sistemləri ilə əlaqələndirilmiş tam funksional milli reyestrin işə salınması.
- Pilot qaydada icra olunan İTMO əməliyyatları vasitəsilə MRV və izləmə sistemlərinin işə salınması.
- Könüllü bazar qaydalarının 6.4-cü Maddədəki istiqamətlər ilə uyğunlaşdırılması.
- Layihə təşəbbüskarları üçün daxili maliyyə və risk azaldıcı vasitələrin səfərbər olunması.
- Regional dialoqların və əməkdaşlıq fəaliyyətlərinin ilk mərhələsinin başladılması.

**Uzun müddətli (2028–2030): Genişləndirmə və sistemin yetkinliyi**

- Özəl sektorun iştirakının sektora xas çərçivələr vasitəsilə institutlaşdırılması.
- Tam şəffaflıqla müvafiq düzəlişlərin geniş miqyasda tətbiqi.
- Sərhədlər arası əməkdaşlığın və regional platformaların genişləndirilməsi.
- 6-cı Maddə üzrə fəaliyyətlərin DİM və iqlim maliyyəsini izləmə sistemləri ilə əlaqələndirilməsi.
- 6-cı Maddə üzrə ticarətin NDC-lərin yenilənməsi dövrlərinə uzunmüddətli əsasda daxil edilməsi.

**İllər üzrə yol xəritəsinin nümunəsi**

**1-ci il**

**Qeyd:** 1-ci il milli reyestrin, o cümlədən yerli aktorlara dair geniş məlumat bazasının işə salınması üçün əsas prioritetdir. Bu reyestr 6-cı Maddə çərçivəsində özəl sektorun meşəsalma fəaliyyətinə yatırımlarına cəlbi üçün təməl rolunu oynayır. Onsuz qlobal kapitalın yerli icraçılarla səmərəli əlaqələndirilməsi çətindir. Dövlətlər layihə planlarnı icra etmək üçün bu sistemi qısa müddətdə maliyyələşdirməli və başlatmalıdırlar. Məqsəd iqlim layihələrinin həyata keçirilməsi üzrə bilik və təcrübəyə malik tərəfdaşların "aktivləşdirilməsi" ilə əməliyyatların və tranzaksiyaların sürətləndirilməsidir.

- İTMO-lara icazənin verilməsi və layihələrin razılaşdırılması üçün hüquqi bazanın qəbul edilməsi.
- Milli karbon reyestrlərinin yaradılması və pilot layihə qaydasında sınaqdan keçirilməsi.
- 6-cı Maddə üzrə nazirliklər arası işçi qrupların yaradılması.
- Hökumət heyətinin 6-cı Maddə prosedurları və təminat mexanizmləri sahəsində təlimləndirilməsi.
- Müvafiq düzəlişlər üzrə daxili siyasətlərin aydınlaşdırılması.
- NDC hədəfləri ilə uyğunlaşdırma və düzəlişlərin izlənməsi üçün milli İEYQ inventarizasiya sistemlərinin gücləndirilməsi.

**2-ci il**

- Reyestrin pilot qaydada işə salınması və ilkin olaraq layihələrə təsdiqlərin verilməsi.
- Müvafiq düzəlişlər və könüllü bazarlara dair siyasətlərin aydınlaşdırılması.
- MRV protokollarının möhkəmləndirilməsi və prosedur qaydalarının hazırlanması.
- Yerli və ya regional aktorlar və özəl sektor üçün 6-cı Maddə üzrə maarifləndirmə kampaniyaların təşkili.

**3-cü il**

- Daxili MRV (ölçmə, monitorinq və yoxlama) və izləmə sistemlərinin işə salınması.
- 6.2 və 6.4-cü Maddələr üzrə pilot İTMO əməliyyatlarına başlanması.
- Emissiyaların azaldılması fəaliyyətləri üçün maliyyənin səfərbər olunması.
- Birgə icra və təhlükəsizlik tədbirləri üzrə ilk regional dialoqun koordinasiya edilməsi.

**4-cü il**

- Reyestrin beynəlxalq sistemlərlə (BMTİÇÇ və 6.4-cü Maddə) inteqrasiya olunması.
- Müvafiq düzəlişlərin həyata keçirilməsi və hesabatların şəffaflıq qaydada dərc olunması.
- Könüllü bazarın 6.4-cü Maddə ilə uyğunlaşdırılması məqsədilə hüquqi vasitələrin işlənib hazırlanması.
- Özəl sektor və yerli hökumətlər üçün bacarıqların artırılması.

**5-ci il**

- İTMO-ların buraxılışının genişləndirilməsi və ikitərəfli/çoxtərəfli əməkdaşlığın dərinləşdirilməsi.

- Kreditlərin verilməsi və birgə layihələrin icrası istiqamətində regional platformaların işə salınması.
- Özəl sektor və maliyyə aktorlarının iştirak qaydalarının institutlaşdırılması.
- 6-cı Maddə üzrə hesabatlılığın milli iqlim maliyyəsi və DİM-lərin izlənməsi ilə uyğunlaşdırılması.

**Y6**

- 6-cı Maddənin yenilənmiş MNQ dövrləri ilə tam sistem inteqrasiyasını başa çatdırmaq.
- Ətraf mühitin bütövlüyünün, bərabərlik və faydaların paylaşılmasının qiymətləndirilməsi.
- Öyrənilmiş dərslərin sənədləşdirilməsi və qanunvericilik bazasının zərurət olduqda yenilənməsi.
- 6-cı Maddənin milli iqlim ambisiyalarının (ambisiyasının) həyata keçirilməsində əsas vasitə kimi mövqeləndirilməsi.

**Əsas mesajlar və praktiki tövsiyələr**

- 6-cı Maddə üzrə fəaliyyətlərin uzunmüddətli NDC və "xalis sıfır" hədəfləri ilə əlaqələndirilməsi.
- İcazələrin verilməsi, ötürmə və düzəlişlər üzrə müvafiq qanunların qəbul edilməsi.
- Tələbə əsasən böyüməsi mümkün olan MRV və reyestrlərə sərmayələrin yatırılması.
- Könüllü bazarların şəffaflıq əsasında birləşdirilməsi.
- Layihə tərtibatında ədalət prinsiplərinə və yerli icmalar üçün faydalara üstünlüyün verilməsi.
- Parçalanmış bazar yanaşmalarına yol verməmək üçün Cənub–Cənub təlim mexanizminin sürətləndirilməsi.
- NDC və DİM-lər üzrə uzunmüddətli öhdəliklər ilə uyğunluğun təmin edilməsi.
- Təcrübələrdən dərs çıxararaq siyasət və institusional tərtibatın davamlı şəkildə təkmilləşdirilməsi.

**Tövsiyə olunan ədəbiyyat**


1. **UNFCCC Maddə 6 Resurslar**
   https://unfccc.int/process-and-meetings/the-paris-agreement/article6
2. **ICVCM: Əsas Karbon prinsipləri və təlimatları**
   https://icvcm.org
3. **https://www.worldbank.org/en/topic/climatechange/brief/the-world-bank-engagement-roadmap-for-carbon-markets?utm_source=chatgpt.com**
4. **Qızıl Standart, Qəbul edən ölkənin 6-cı Maddə ilə bağlı təlimatları**
   https://www.goldstandard.org/publications/implementing-article-6---an-overview-of-preparations
5. **Korporativ yanaşmalar əsasında Paris Sazişinin təkmilləşdirilməsi**
   https://climatepromise.undp.org/research-and-reports/advancing-paris-agreement-through-cooperative-approaches

6. **İsveçrənin emissiyaları kompensasiya etmək məqsədilə bağladığı ikitərəfli sazişlər COP26 öncəsi iqlim ambisiyaları baxımından mənfi presedent yaratmışdır.**

   https://newclimate.org/news/switzerlands-bilateral-agreements-to-offset-their-emissions-set-a-poor-precedent-for-ambition

# Fəsil 10: 6-cı Maddənin daha geniş siyasət gündəliyi ilə uzlaşdırılması

Bu fəsildə hazırlıq mərhələsi və hüquqi uyğunluq məsələlərindən (Fəsil 4-də nəzərdən keçirilmişdir) kənara çıxaraq, ölkələrin 6-cı Maddəni daha geniş siyasət və investisiya gündəliklərinə necə inteqrasiya edə biləcəyinə diqqət yetirir. Məqsəd həm əlavə faydaları maksimuma çatdırmaq, həm də iqlim fəaliyyətlərinə maliyyənin sistemli şəkildə açılmasıdır. Bu fəsildə əvvəlki müzakirələrə əsaslanaraq, xüsusilə 6-cı Maddənin milli inkişaf və sektoral siyasət gündəliklərinə daxil edilməsi məsələlərinə diqqət yetirilir.

### 1. Giriş

6-cı Maddə ayrıca olaraq karbon ticarəti aləti kimi qəbul edilməməlidir. Milli inkişaf strategiyaları[1] ilə uzlaşdırıldıqda, o, maliyyə resurslarının ayrılmasını, innovasiyaların stimullaşdırılmasını və iqlim ambisiyalarının gücləndirilməsini təmin edə bilər. Ölkələr 6-cı Maddəni NDC-lərin icrası[1], yaşıl sənaye siyasəti və ədalətli keçid kimi daha geniş gündəliklərə daxil edə bilər ki, əlavə faydaları maksimum dərəcədə təmin etsin.

### 2. Siyasətlərlə uyğunluğun əhəmiyyəti

| Siyasət gündəliyi | 6-cı Maddənin əhəmiyyəti |
|---|---|
| NDC-lər (Milli Müəyyən Edilmiş Töhfələr) və LT-LEDS (Uzunmüddətli Aşağı Emissiyalı İnkişaf Strategiyaları) | 6-cı Maddə şərti hədəflərin maliyyələşdirilməsinə kömək edə və ambisiyaları yüksəldə bilər |
| Davamlı İnkişaf Məqsədləri (DİM-lər) | Düzgün tərtib olunmuş layihələr enerji, sağlamlıq, məşğulluq sahələrində əlavə faydalar təmin edir |
| Ədalətli Keçid | Gəlirlər və investisiyalar işçiləri, mikro, kiçik və orta müəssisələri və bərabərlik məqsədlərini dəstəkləyə bilər |
| Yaşıl Sənaye Siyasəti | Sənayenin dekarbonizasiyası və təmiz texnologiyaların genişləndirilməsi 6-cı Maddə ilə əlaqələndirilə bilər |
| İqlim Maliyyələşməsi Strategiyası | 6-cı Maddə Yaşıl İqlim Fondu (GCF), çoxtərəfli inkişaf bankları (MDB-lər) və qarışıq maliyyə axınlarını tamamlaya bilər |
| Enerji Keçidi Planları | Enerji sektorunda emissiyaların azaldılması tədbirləri yüksək keyfiyyətli ITMO-lar yarada bilər |

### 3. İnteqrasiya üçün giriş nöqtələri

| Giriş nöqtəsi | 6-cı Maddə ilə əlaqə |
|---|---|
| NDC-lərin yenilənməsi | 6-cı Maddənin maliyyələşmə və ya əməkdaşlıq mexanizmi kimi daxil edilməsi |
| Sektor üzrə planlar (məs. nəqliyyat, tullantılar, enerji) | Kreditləşmə və ya əməkdaşlıq üçün uyğun fəaliyyətlərin müəyyən edilməsi |
| İnvestisiyaların təşviqi strategiyası | 6-cı Maddənin yaşıl xarici birbaşa investisiya (FDI) və dövlət-özəl tərəfdaşlıqları (PPP) üçün kanal kimi mövqeləndirilməsi |

| | |
|---|---|
| Milli Adaptasiya Planları | Adaptasiya fəaliyyətlərinin ortaq faydalarının maliyyələşdirilməsi məqsədilə 6-cı Maddə üzrə gəlirlərin və ya SOP-un daxil edilməsi |
| İqlim büdcəsinin etiketlənməsi | 6-cı Maddədən əldə edilən gəlirlərin iqlimlə etiketlənmiş milli büdcələrlə uzlaşdırılması |

**4. Nümunələr**

- İndoneziya: 6-cı Maddənin Ədalətli Enerji Keçidi üzrə Tərəfdaşlıq (JETP) strategiyasına[4] inteqrasiya olunması.
- Qana: 6-cı Maddədən əldə olunan gəlirlərin İqlim Maliyyəsi vasitəsilə DİM-yönümlü investisiyalarla əlaqələndirilməsi.
- İsveçrə: Tullantılar, enerji və nəqliyyat sektorlarında strukturlaşdırılmış ikitərəfli əməkdaşlıq üçün 6-cı Maddədən istifadə.
- Mərakeş: 6-cı Maddə çərçivəsində layihələrin milli yaşıl hidrogen strategiyası ilə uzlaşdırılması.

**5. Hökumət strukturları və parlament deputatları üçün yol xəritəsi**

| Addımlar | Fəaliyyətlər |
|---|---|
| Addım 1: Xəritələşdirmə | 6-cı Maddənin əlavə edilməsi üçün əsas siyasət planlarının müəyyən edilməsi (NDC, SDG, LT-LEDS, yaşıl sənaye) |
| Addım 2: Prioritetləşdirmə | Yüksək azalma və ortaq faydaların əldə edilməsi potensialına malik sektorların və fəaliyyətlərin seçilməsi |
| Addım 3: İnstitusional Uzlaşma | İqlim, planlaşdırma, maliyyə və sektor üzrə nazirliklərin mandatlarının uzlaşdırılması |
| Addım 4: Layihə planlarının işlənib hazırlanması | Həm 6-cı Maddədə müəyyən edilmiş qaydalara, həm də milli prioritetlərə uyğun layihə planlarının qurulması |
| Addım 5: Monitorinq və Rəy bildirmə | 6-cı Maddənin daha geniş siyasət üzrə ƏFG-lərə (iş yerləri, emissiyalar, bərabərlik) necə töhfə verdiyinin izlənməsi |

**6. Hökumət strukturları və Parlament üzvləri üçün Əsas Mesajlar və Fəaliyyətlər**

- 6-cı Maddəyə yalnız karbon maliyyələşməsi mexanizmi kimi deyil, eyni zamanda, əlverişli imkanlar yaradan kəsişən vasitə kimi yanaşılmalıdır.
- 6-cı Maddə üzrə strategiyaları NDC-lərə, LT-LEDS-lərə və iqlim maliyyələşməsi planlarına daxil edilməlidir.
- 6-cı Maddədən maliyyələşdirilməsi çətin sektorlarda (məsələn, tullantılar və mobillik) investisiyalara yol açmaq üçün istifadə edilməsi.
- DİM-in ortaq faydalarının[3] təmin edilməsi və sənayenin inkişafı hədəfləri ilə uzlaşan layihələrin hazırlanması.
- Nazirliklər arasında koordinasiya yaradaraq 6-cı Maddənin nəticələrinin daha geniş milli inkişafa dəstək verməsinin təmin edilməsi.[3]
- 6-cı Maddə çərçivəsində meşəsalma fəaliyyətlərinin maliyyələşdirilməsi kənd yerlərinin inkişafı və biomüxtəliflik hədəfləri ilə uzlaşmalıdır. Yerli aktorların reyestri bu uyğunluğu

təmin edir; çünki burada iqlim, DİM-lər, biomüxtəliflik, ənənəvi əkinçilik üsulları, yerli suvarma metodları və icma dayanıqlılığı sahəsində fəaliyyət göstərən QHT-lər, kooperativlər, yerli alimlər, texniki mütəxəssislər və tədqiqatçılar müəyyən edilir. Dövlətlər bu reyestr vasitəsilə siyasət dəstəyini hədəfləyə və 6-cı Maddə üzrə layihələrin bu subyektlərlə birbaşa əməkdaşlıq etməsini təmin edə bilər, bu isə karbon hüdudlarını aşan digər faydaları maksimuma qaldırır.

**İstifadə olunmuş ədəbiyyat**


1. BMT İnkişaf Proqramı (2023). Karbon Bazarlarının İnkişafın Planlaşdırılmasına istiqamətləndirilməsi https://www.undp.org/press-releases/un-development-programme-launches-plan-boost-integrity-carbon-markets-and-increase-access-finance-schemes-developing-countries
2. Növbəti Nəsil Karbon Bazarlarına Doğru İrəliləyiş: Məqalə 6-dan müşahidələr https://climatefocus.com/wp-content/uploads/2022/06/CFI-Moving-towards-next-generation-carbon-markets-1.pdf
3. İqlim Fəaliyyətində İnsan faktorlarının Mərkəzə Çıxarılması https://www.wri.org/insights/putting-people-center-climate-action#:~:text=Over%2015%20million%20additional%20jobs,reduced%20air%20and%20water%20pollution
4. İndoneziya JETP Katibliyi (2024). Ədalətli Keçidin Maliyyələşdirilməsində 6-cı Maddənin Tətbiqinin Qiymətləndirilməsi: https://www.germanwatch.org/sites/default/files/germanwatch_the_role_of_the_just_energy_transition_partnership_in_indonesia_2024.pdf


**Tövsiyyə olunan ədəbiyyat:**


ICAT (2021). Karbon bazarları strategiyalarının milli inkişaf planları ilə inteqrasiya olunması https://climateactiontransparency.org/resource/icat-carbon-market-strategies-guide

# Fəsil 11: Əsas nəticələr və hökumət strukturları üçün yoxlama Siyahısı

6-cı Maddənin daha geniş siyasət gündəlikləri ilə uyğunlaşdırılması zərurətini əsas götürürək, bu yekun fəsildə əsas nəticələr praktik yoxlama siyahıları ilə birləşdirilir. O, hökumət strukturları və parlament nümayəndələri üçün hazır istinad kimi nəzərdə tutulmuşdur.

## 1. Məqsəd və Çərçivə

Bu fəsildə 6-cı Maddə və Karbon Bazarlarına dair bu Bələdçidəki əsas dərsləri hökumət strukturları üçün praktik xülasəyə çevirir. Məqsəd qanunverici orqan nümayəndələrinə, iqlim üzrə vəzifəli şəxslərə və dövlət sektorundan rəhbər şəxslərə 6-cı Maddənin həyata keçirilməsinin əməli və strateji aspektlərini idarə etməkdə dəstək verməkdir. Ölkənizin hazırlıq, pilot yaxud genişləndirmə mərhələsində olmasından asılı olmayaraq, bu fəsil növbəti addımlara dair əsas istinad kimi istifadə oluna bilər.

## 2. Əsas 10 Nəticə

- 6-cı Maddə məqsəd deyil, alətdir – Onun dəyəri yalnız beynəlxalq əməliyyatlarla deyil, daxili iqlim hədəflərinə necə dəstək olmasından asılıdır.
- Hazırlıq əsasdır – Hüquqi aydınlıq, institusional vəzifələr və məlumat sistemləri əməliyyatlardan əvvəl mövcud olmalıdır.
- Müvafiq düzəlişlər həm siyasi, həm də texniki xarakter daşıyır – Onlar nazirliklər arası koordinasiya, uzunmüddətli planlaşdırma və MRV sistemlərinə etimad tələb edir.
- Pilot layihələrin həyata keçirilməsi bacarıqlar yaradır – Erkən mərhələdə həyata keçirilən pilot layihələr institusional yaddaşın formalaşdırılması, eləcə də çərçivələrin praktikada tətbiqi baxımından vacib hesab olunur.
- Gələcək hədəflərin lazım olandan artıq satışına yol verməmək lazımdır – NDC üzrə müəyyənləşdirilən kursu qorumaq lazımdır; qısamüddətli gəlirlərə görə daxildə emissiyaların azaldılması tədbirlərinin tempini aşağı salmaq olmaz.
- Özəl sektorun cəlbi tələbi dəyişir – Alıcılar yüksək dəqiqlikli kreditlər axtarışındadır, çünki belə kreditlər DİM-lərdən ortaq faydaların əldə edilməsini, icmanın iştirakçılığını, texnologiya transferi və ciddi təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini təmin edir. Böyük inkişaf nəticələri olan layihələr getdikcə daha çox dəyərləndirilir. Texnologiya transferi – ümumi alətlər, təlimlər və tərəfdaşlıqlar vasitəsilə – iqlim hədəflərinin əhatə dairəsinin artırılmasına və uzunmüddətli dayanıqlığın gücləndirilməsinə kömək edə bilər.
- 6.2 və 6.4-cü Maddələri bir-birindən fərqli istifadə hallarına xidmət edir – 6.2 –ci Maddə ikitərəfli razılaşmalar və xüsusi tərəfdaşlıqlar üçün, 6.4 –cü Maddə isə standartlaşdırılmış, hərtərəfli çıxış imkanlarının yaradılması üçün istifadə edilməlidir.
- Reyestrlər və məlumat sistemləri bir-biri ilə qarşılıqlı əlaqədə işləməlidir – Şəffaflıq və ikiqat hesablamalara yol verilməməsi rəqəmsal infrastrukturun funksionallığından asılıdır.
- İqlim maliyyələşməsinə təminat yoxdur – Kreditlərin satışı güzəştli iqlim maliyyələşməsini əvəz etmir; xərc-gəlir təhlili diqqətlə aparılmalıdır.

- Koordinasiya işinin hökumət səviyyəsində aparılması vacibdir – Qanunverici dəstək, siyasi razılıq və uzunmüddətli iqlim idarəçiliyi tərəflərin etibarlı iştirakı baxımından əsas hesab olunur.

### 3. Hökumət strukturları üçün yoxlama siyahısı

| Mövzu | Yoxlama siyahısı |
|---|---|
| Hüquqi və institusional baza | 6-cı Maddədə iştirak üçün qanunvericiliyin qəbul edilməsi; aydın səlahiyyətə malik milli orqanın təyin olunması. |
| NDC və emissiyaların azaldılmasının planlaşdırılması | ITMO-ların təsdiqinin NDC üzrə müəyyən edilmiş kurs və LT-LEDS ilə uyğunlaşdırılması; sektorun sərhədlərinin və uyğun hesab olunmayan sahələrin müəyyənləşdirilməsi. |
| İdarəçilik və koordinasiya | Nazirliklər arası əlaqələndirmə orqanının yaradılması Təhlükəsizlik təminatları və faydaların bölüşdürülməsi ilə bağlı protokolların yaradılması |
| İnfrastruktr və MRV | Milli reyestrin və hesabatların təqdim olunmasının UNFCCC ilə əlaqələndirilməsinin təşkili; emissiyaların azaldılmasının nəticələri və düzəlişlərin edilməsi üçün məlumat protokollarının müəyyən edilməsi. |
| Bazar strategiyası | 6.2 və 6.4-cü Maddələr üzrə istifadə hallarının müəyyən edilməsi; Tələblə çıxış edən tərəfdaşların xəritələndirilməsi və ikitərəfli kanalların inkişaf etdirilməsi. |
| Bacarıqların artırılması | Nazirliklərin, parlament üzvlərinin və özəl aktorların təlimləndirilməsi; pilot layihələrdə, bilik mübadilələrində və 6-cı Maddə üzrə təsis olunmuş şəbəkələrdə iştirak. |
| Risklərin və bütövlüyün idarə olunması | Korrupsiya əleyhinə tədbirlər, şikayətlərə baxılması və riskin aradan qaldırılması mexanizmlərinin işlənib hazırlanması; aşırı satış risklərinin izlənməsi və NDC ehtiyatının saxlanması; |
| Yerli iqlim aktorlarının (subyektlərinin) reyestrinin yaradılması və idarə olunması (milli səviyyədə) (QHT-lər, Korporasiyalar, Yerli təşkilatlar (əsasdır) | Bu məcburi xarakter daşıyır, könüllü deyil. Bu, 6-cı Maddə çərçivəsində özəl sektor tərəfindən meşəsalma fəaliyyətlərinin yüksək dürüstlüklə genişləndirilməsinin əsasını təşkil edir. Platformalarda belə məlumatların effektiv işləməsi və maliyyənin özünü doğrultmuş, effektiv fəaliyyət göstərən yerli tərəfdaşlara çatması tələb olunur. |

### 4. Alətlər və resurslar

- UNFCCC, 6.2 –ci Maddə üzrə İlkin Hesabat Şablonları
- IC-VCM Hökumətin Hazırlıq Çərçivəsi
- Qızıl Standart. Hökumətlərlə İş üzrə Alətlər Dəsti
- Dünya Bankı İqlim Anbarı + İqlim Fəaliyyəti Məlumatları üzrə Etimad Fondu (Climate Action Data Trust)
- UNDP NDC Dəstək Proqramı Resursları
- Bənzər ölkə nümunələri – Qana, İsveçrə, Tailand, Peru
- NDC Tərəfdaşlığı (https://ndcpartnership.org/

### 5. Yekun qeydlər: İcra mərhələsi artıq yeni ambisiya meyarıdır

6-cı Maddə sadəcə texniki mexanizm deyil — bu, idarəçilik üçün bir sınaqdır. Ölkələr niyyətdən institusional quruculuğa, ambisiyadan hesabatlılığa keçməlidirlər. Bu yoxlama siyahısı başlanğıcdır. Uzunmüddətli uğur liderlikdən, tələblərə əməl olunmasından və öyrənilmiş dərslər əsasında kursun düzəldilməsi cəsarətinin ortaya qoyulmasından asılı olacaq.

İnkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyələşməsinə mane olan ən mühüm baryer həmin ölkələrdə iqlim xidməti təminatçılarının maliyyələşməyə çıxışının olmamasıdır. Bu, onların həyata keçirdikləri fəaliyyətləri, bacarıqlarını və layihələrini qeydiyyata alacaq platformanın olmaması səbəbindən baş verir.

#### Tövsiyə olunan ədəbiyyat

- UNFCCC Maddə 6.2, İlkin Hesabat Şablonları: https://unfccc.int/documents/624470
- IC-VCM Hökumətin Hazırlıq Çərçivəsi: https://icvcm.org/wp-content/uploads/2024/02/CCP-Section-4-V2-FINAL-6Feb24.pdf
- https://globalgoals.goldstandard.org/102-par-stakeholder-consultation-requirements/
- Dünya Bankının İqlim Anbarı: https://www.theclimatewarehouse.org/
- İqlim Fəaliyyəti Məlumatlarının Etimad Fondu: https://climateactiondata.org/
- BMTİP-ın NDC üzrə Dəstək Proqramı: https://climatepromise.undp.org/ndc-support-programme
- İsveçrənin Maddə 6 üzrə İkitərəfli Razılaşmaları: https://www.bafu.admin.ch/bafu/en/home/topics/climate/info-specialists/climate--international-affairs/staatsvertraege-umsetzung-klimauebereinkommen-von-paris-artikel6.html
- Tayland tərəfindən 6-cı Maddənin milli səviyyədə tətbiqi: https://www.spar6c.org/sites/default/files/downloads/best-practices/Thailand.pdf
- Peru və İsveçrənin İlk İTMO Əməliyyatları: https://www.news.admin.ch/en/nsb?id=80708
- NDC Tərəfdaşlığı: https://ndcpartnership.org/

# Fəsil 12. Əlavə resurslar və alətlər

Hazırlıq, icra və siyasətin uyğunlaşdırılması ilə bağlı əvvəlki fəsillərdə təqdim olunan məsələləri əsas götürərək, bu fəsildə hökumətlərin, parlament deputatlarının və maraqlı tərəflərin 6-cı Maddədə təsbit olunmuş mexanizmlərin tətbiqi istiqamətində istifadə edəcəyi resurslar və alətlər siyahısı təqdim olunur.

Resurslar ölkə üzrə bütün resursların, bütün qurumlardan (ətraf mühit, su, kənd təsərrüfatı, kənd yerlərinin inkişafı və s.) bilik və bacarıqların bir araya gətirilməsi, ərazilərə dair məlumatların mərkəzləşdirilməsi və layihələrin icrasının asanlaşdırılması məqsədilə yerli idarəetmə orqanlarının səlahiyyətləndirilməsi baxımından mühüm vasitədir.

Bu fəsildə 6-cı Maddədə təsbit olunmuş mexanizmləri daha yaxşı anlaya və tətbiq edə bilməsi üçün hökumətlərin, qanunverici orqan nümayəndələri və maraqlı tərəflər üçün ictimaiyyətə açıq resursların siyahısı təqdim edilir.

**A. UNFCCC və Müşahidə Orqanı platformaları**

- UNFCCC Maddə 6.2 Reyestr Portalı
- Maddə 6.4 Müşahidə Orqanı: İclas hesabatları, Metodologiyalar, Təlimat
- NDC Reyestri və Şəffaflığa dair İkiillik Hesabatlar

**B. Beynəlxalq təşəbbüslər və Hazırlıq Platformaları**

- IC-VCM: Ev sahibliyi edən ölkə üçün hazırlığa dair təlimatlar, idarəetmə alətləri
- Qızıl Standart: Siyasət alətləri dəsti, dayanıqlı inkişaf üzrə təlimatlar
- İƏİT və IETA: 6-cı Maddə üzrə hazırlığa dair hesabatlar və ölkə təcrübələri
- Dünya Bankı: İqlim Anbarı (Climate Warehouse), Emissiyaların Azaldılmasının Nəticələrinə dair məlumat bazası
- "İqlim üzrə Qeydiyyat (Ledger) Təşəbbüsü": Rəqəmsal MRV alətləri və blokçeyn tətbiqləri

**C. Regional və Ölkə səviyyəli nümunələr**

- Qana: 6-cı Maddə üzrə Çərçivələr Təlimatı
- İsveçrə: İkitərəfli Əməkdaşlığa dair Razılaşmalar
- Indoneziya: Karbonun İqtisadi Dəyəri haqqında Prezidentin Qərarı
- Seneqal və Çili: Regional Bazar Hazırlığı Təşəbbüsləri
- Sinqapur: Karbon Xidmətləri və Beynəlxalq Bazarda İştirak (https://www.nccs.gov.sg/)

**D. Texniki və Hüquqi İstinad Alətləri**

- Karbon Bazarlarının Müşahidəsi: Siyasət arayışları və vətəndaş cəmiyyətinin baxışı
- Verra və Qızıl Standart Reyestrləri: Metodologiyalar və layihə üzrə məlumat bazası
- "Climate Focus": Hüquqi hazırlığın qiymətləndirilməsi və məsləhət qeydləri
- IGES: Siyasət üzrə məlumat bazası və mexanizmlərin müqayisəsi

**Əsas məqamlar**

- Hökumətlər UNFCCC və milli reyestrlər vasitəsilə strukturlaşdırılmış 6-cı Maddə resurslarına çıxış əldə edə bilərlər.

- IC-VCM, Qızıl Standart və İƏİT tərəfindən hazırlıq üzrə təlimatlar və ölkələrə dəstək alətləri təqdim edilir.
- Ölkə nümunələri (Qana, İndoneziya, İsveçrə) hüquqi və institusional tədbirlər üçün nümunə rolunu oynayır.
- Vətəndaş cəmiyyəti və texniki xidmət təminatçıları (Verra, Climate Focus) siyasətə dair arayışlar və müqayisəli alətlər təqdim edir.
- UNFCCC resursları xaricində, dövlətlər dinamik reyestrin yaradılması və inkişaf etdirilməsi üçün xüsusi maliyyələşdirməyə və texniki yardıma üstünlük verməlidirlər.

**Tövsiyə olunan ədəbiyyat və resurslar**

- UNFCCC 6.2-ci Maddə, Reyestr portalı
  https://unfccc.int/process-and-meetings/the-paris-agreement/article-6/article-62/international-registry#:~:text=Main-,Article%206.2,not%20yet%20been%20first%20transferred

- Maddə 6.4 Müşahidə Orqanı
  https://unfccc.int/process-and-meetings/bodies/constituted-bodies/article-64-supervisory-body

- NDC Reyestri
  https://unfccc.int/NDCREG

- https://assets.publishing.service.gov.uk/media/67ff86a6ed87b81608546788/vcnm-integrity-consultation-document.pdf

- Qızıl Standart tərəfindən təqdim olunan Siyasətə dair alətlər dəsti
  https://globalgoals.goldstandard.org/sdg-impact-tools/#:~:text=The%20Gold%20Standard%20SDG%20Impact,users%20to%20use%20this%20version.

- İƏİT & IETA tərəfindən Ölkələr üzrə nümunələrin araşdırılması
  https://www.oecd.org/environment/climate-change/article-6-readiness.htm

- Dünya Bankının İqlim Anbarı (Climate Warehouse)
  https://www.climatewarehouse.org/

- İqlim üzrə Qeydiyyat (Ledger) Təşəbbüsü
  https://climateledger.org/

- Indoneziya Karbonun İqtisadi Dəyərinin Tənizmlənməsi
  https://peraturan.bpk.go.id/Home/Details/205200/perpres-no-98-tahun-2021

- Karbon Bazarlarının Müşahidəsinə dair Arayış
  https://carbonmarketwatch.org/our-work/policy-briefs/

- Verra Reyestri
  https://registry.verra.org/

- Qızıl Standart Reyestri
  https://registry.goldstandard.org/
- “Climate Focus” Hüquqi Hazırlıq
  https://climatefocus.com/
- İGES haqqında Ətraflı İcmal
  https://www.iges.or.jp/en/publication_documents/pub/data/en/6129/IGES+Climate+Databases-Pamphlet_final.pdf

# Fəsil 13: Risklər, yumşaldıcı strategiyalar və 6-cı Maddə üzrə fəaliyyətlərdə etik prinsiplər

## 1. Ümumi baxış

6-cı Maddə üzrə mexanizmlərdə iştirak həm bir fürsətdir, lakin, həm də özünə məxsus risklər yaradır. Əsas risklərdən biri elit qrupların nəzarəti və ya qeyri-effektiv qurumlarla tərəfdaşlıqdır ki, bunun d öz riskləri və etik problemləri vardır. Ölkələr və layihə icraçıları bazar, idarəetmə və siyasi maraqlardakı qeyri-müəyyənliklər fonunda ekoloji bütövlüyü, şəffaflığı, faydaların ədalətli bölgüsünü, eləcə də hüquqi məsuliyyət məsələləri təmin etməlidirlər. Beləliklə, bu sonuncu fəsildə əsas risklər, tövsiyə olunan yumşaldıcı strategiyalar və məsuliyyətli iştirakı tənzimləyən etik prinsiplər təqdim edilir.

## 2. Əsas risk kateqoriyaları

| Risk sahəsi | Təsviri | Necə aradan qaldırılmalı? |
|---|---|---|
| Ekoloji bütövlük | Əlavə olunmama, ikiqat hesablama, sızma riskləri. | Baza vəziyyəti üzrə mühafizəkar göstəricilərdən istifadə, üçüncü tərəflərin yoxlaması və şəffaf reyestrlərin tətbiqi |
| İTMO-ların aşırı satışı | Öz milli səviyyədə müəyyən olunmuş töhfələr (NDC) üçün tələb olunandan artıq satmaq, bununla da gələcək ambisiyaların aşağı tutulması. | Ötürülən bilən həcmlərə hədd qoymaq; NDC-lər üzrə gedişatı mütəmadi qiymətləndirmək |
| Daxili ambisiyaların aşağı tutulması | ITMO gəlirlərindən aşırı asılılıq daxili emissiya yumşaldıcı tədbirlərə marağı azalda bilər. | Daxili töhfələr üçün minimumların tətbiqi; ITMO satışlarını yerli fəaliyyətlərə reinvestisiya ilə əlaqələndirmək |
| İcmanın məcburi köçürülməsi | Layihələrin yanlış tərtib olunması nəticədə torpaqların ələ keçirilməsinə və yerli əhalinin kənarda qalmasına səbəb ola bilər. | FPIC (azad, əvvəlcədən və məlumatlandırılmış razılıq), fayda bölgüsü və təminat qiymətləndirməsini tətbiq etmək |
| Korporativ müəssisələr tərəfindən "yaşıl yalan" | Korporasiyalar tərəfindən könüllü bazarlarda kompensasiyalardan istifadə etməklə iqlim töhfələrini şişirtməsi riski. | Korporativ iddiaları tənzimləmək və emissiyaların tam azaldılması iyerarxiyasının açıqlanmasını tələb etmək |
| Hüquqi səlahiyyətlərin qeyri-müəyyənliyi | Səlahiyyət, məsuliyyət və öhdəliklərlə bağlı qeyri-müəyyənliyin olması. | Dəqiq hüquqi baza və standartlaşdırılmış səlahiyyət |

| | | |
|---|---|---|
| | | protokollarının işlənib hazırlanması |
| Ədalət və sosial risklər | İcmanın kənarlaşdırılması, elit qrupların nəzarətə sahiblənməsi və ya faydaların qeyri-ədalətli bölüşdürülməsi. | Həssas qrupların daxil edilməsinə və icmanın rəhbərliyi ilə layihə modellərinin icrasına icazə vermək |
| Məlumat və İMİ (ölçmə, hesabatlılıq və təsdiqləmə) zəifliyi | Baza ssenarilərinin zəif keyfiyyətdə olması, yoxlanılması mümkün olmayan nəticələr, rəqəmsal reyestrlərin olmaması. | Rəqəmsal MRV (ölçmə, hesabatlılıq və yoxlama) sistemlərinə və müstəqil auditlərə yatırımların edilməsi. |
| Bazar volatilliyi (bazarda qiymət dəyişkənliyi0 | Baza göstəricilərin Keyfiyyətsizliyi, nəticələrinin təsdiqlənməsinin qeyri-mümkünlüyü, rəqəmsal reyestrlərin olmaması. | Qiymətlərindən, sığorta və ya diversifikasiya strategiyalarından istifadə |
| Siyasi yaxud institusional risklər | Davamlılığın olmaması, institusional imkanların zəifliyi və tənzimləmə boşluqları. | Partiyalararası dəstəyin yaradılması və daimi institusional strukturların formalaşdırılması |

**3. Emisiyaların azaldılması strategiyaları**

| **Strategiya** | **Tətbiq** |
|---|---|
| Güclü icazə prosedurları | ITMO-ların razılaşdırılması və izlənməsi üçün aydın, şəffaf prosedurların olması. |
| Baza vəziyyəti ilə bağlı göstəricilərə mühafizəkar yanaşma | Şişirdilmiş baza göstəricilərindən qaçmaq və hesablamaların mühafizəkar əsaslarla aparılması. |
| Müvafiq düzəlişlərin aydın olması | Milli uçot sistemlərində emissiyaların ötürülməsi prosesinin dəqiq əks olunduğuna əmin olmaq. |
| Maraqlı tərəflərlə ciddi iş | FPIC, şikayət mexanizmləri və faydaların ədalətli bölüşdürülməsinin təmin edilməsi. |
| İnstitusional hazırlıq | Nazirliklər, reyestrlər, MRV və hüquqi bazalar üzrə bacarıqların artırılması. |
| Diversifikasiya | Tək sektor və ya alıcıdan aşırı asılılığın qarşısının alınması. |
| Ssenari planlaşdırması | 6-cı Maddə üzrə portfellərin tənzimləyici və qiymət dəyişikliklərinə qarşı sınaqdan keçirilməsi. |

**4. Etik məsələlər**

- İqlim Ədaləti: 6-cı Maddə üzrə tədbirlər yalnız səmərəliliyə deyil, həm də ədalətə əsaslanmalıdır.

- Zərər verməmə: Xüsusən yerli xalqlar və həssas qruplar üçün təminatların olmasına prioritet qaydada yanaşılmalıdır.
- Şəffaflıq və hesabatlılıq: Səlahiyyətlər, reyestrlər və faydalarla bağlı məlumatlar ictimaiyyətə açıqlanmalıdır.
- Faydaların ədalətli bölüşdürülməsi: Yerli icmalar sadəcə benefisiar deyil, tərəfdaş olmalıdırlar.
- “Yaşıl yalan”a yol verilməməli: Korporasiyalar və hökumətlər iqlim tədbirlərinin tam spektrini açıqlamalı, 6-cı Maddənin rolunu şişirtməməlidir.

**5. Tövsiyyə olunan yol xəritəsi**

| Mərhələ | Tədbir |
|---|---|
| Qısa müddətli (2025–2026) | Bütün ITMO əməliyyatları üçün risk reyestrləri və etik filtrlərin yaradılması. |
| Orta müddətli (2026–2028) | Maraqlı tərəflərin daxil edilməsi və faydaların bölüşdürülməsi üzrə uyğunlaşdırılmış qaydaların hazırlanması. |
| Uzun müddətli (2028–2030) | Risk yumşaldıcı protokolların 6-cı Maddə üzrə tətbiq olunan qanunvericiliyə və reyestrlərin qarşılıqlı fəaliyyət çərçivələrinə daxil edilməsi. |

**6. Əsas mesajlar və praktiki tövsiyələr**

- Etik prinsiplərin əvvəldən 6-cı Maddə üzrə qaydalara inteqrasiya olunması. Etik prinsiplərə əlavə element kimi yanaşılmamalı.
- Təhlükəsizlik tədbirləri və sənədləşmə işinin gücləndirilməsi ilə reputasiya və hüquqi risklərin qarşısının alınması.
- Şəffaflıq və etimadın artırılması üçün MRV və rəqəmsal infrastruktura yatırımlara üstünlüyün verilməsi.
- İqlim ədaləti və faydaların ədalətli bölüşdürülməsi mexanizmlərinin möhkəmləndirilməsi.
- Karbon emissiyalarına dar baxış bucağından çəkinmək – emissiya azaldıcı tədbirlərin uzunmüddətli dayanıqlı inkişafı dəstəkləməsini təmin etmək.
- Bütün aidiyyəti təşkilatlarda şəffaf, dövlət tərəfindən təsdiqlənmiş reyestrin olması elit qrupların hakimlik riskini azaldır. Belə reyestr əvvəlki yanaşmalar üçün xarakterik olan məhdudiyyətləri təkrar etməməli, əksinə şəffaf və inklüziv məlumat bazası ortaya qoymalıdır. Bununla, qlobal aktorlar və yerli icmalara ədalətli çıxış və rəqabət imkanları verəcək, həmçinin 6-cı Maddə çərçivəsində özəl meşəsalma fəaliyyətlərində etik standartların qorunmasını təmin edəcəkdir.

**Nəticə**

Ölkələr və maraqlı tərəflər 6-cı Maddə üzrə mexanizmlərdə iştirak etdiyindən, risklərin tanınması və idarə olunması ekoloji etibarlıq, sosial ədalət və uzunmüddətli etimadın

təmin edilməsi baxımından vacib əhəmiyyət kəsb edir. Etik prinsiplər yalnız tələblərə əməl olunmasına deyil, həm də ambisiyalar istiqamət verməlidir.

Artıq bir sıra təşəbbüslərdə risklərin və təhlükəsizlik təminatlarının qiymətləndirilməsinin 6-cı Maddə və daha geniş karbon bazarı sistemlərinə inteqrasiya edilməsi məsələləri nəzərə alınır:

- IC-VCM Qiymətləndirmə Çərçivəsində layihə üzrə risklərin filtrasiya olunmasını dəstəkləyən bütövlük meyarları və reytinq alətləri təqdim edilir.
- Qızıl Standart Təminat Prinsiplərində ekoloji və sosial risklərin qiymətləndirilməsi üçün strukturlaşdırılmış yanaşma təqdim edilir.
- Qana və Çili kimi ölkələr hüquqi və institusional hazırlığı qiymətləndirmək məqsədilə milli səviyyədə hazırlıq cədvəlləri və layihə razılaşdırılması matrisləri hazırlayır.
- Dünya Bankının "Climate Warehouse" və "CAD Trust" platformaları reyestrlərdə etiketləmə, izləmə və risk siqnalları xüsusiyyətlərini dəstəkləyə bilər.

Bu təşəbbüslər 6-cı Maddə üzrə layihə və proqram təsdiqlərinin "işıqfor" göstəriciləri, MRV keyfiyyət balları və icma mühafizə siqnalları ilə müşayiət olunması istiqamətində yol açır. Dövlətlər təsdiq və reyestr proseslərini belə reytinq-yönümlü təcrübələrlə uyğunlaşdırmağa təşviq olunurlar.

**Tövsiyyət olunan ədəbiyyat**


1. https://unfccc.int/process-and-meetings/the-paris-agreement/article-6/article-62
2. https://carbonmarketwatch.org/2025/04/10/first-wave-of-article-6-carbon-credits-misfire-spectacularly/
3. https://climatefocus.com/wp-content/uploads/2025/01/Voluntary-Carbon-Market-2024-Review.pdf
4. https://www.goldstandard.org/companies/quality-carbon-credits
5. https://openknowledge.worldbank.org/entities/publication/2c8fea1a-2b3c-4a66-b473-b200944cd7e1
6. IC-VCM Əsas Karbon Prinsiplərinin qiymətləndirilməsi çərçivəsi (2023)

GLOBE

The Global Legislators Organisation

© GLOBE Legislators 2025

235/2 Av. des Volontaires, B-1150 Brussels, Belgium

0445.593.551. RPM - Tribunal de Bruxelles - BE12 0689 0292 1392

Email: secretariat@globelegislators.org

www.globelegislators.org 𝕏 @GLOBE_jntl

in /in/globe-legislators/